# Davos: qlobal iqtisadiyyatın üfüqləri

*Azərbaycan Respublikasının Prezidenti*
*Heydər Əliyevin*
*Davos Dünya İqtisadi Forumu*
*ilə əlaqədar İsveçrəyə işgüzar səfəri*

27-30 yanvar 2000-ci il

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

BAKI - 2000

# Oxucuya

*Davos Dünya İqtisadi Forumu ilk dəfə 1971-ci ildə keçirilmiş və o vaxtdan Davos forumu dünyanın siyasi iqlimini müəyyən edənlərin görüş yerinə çevrilmişdir.*

*Müstəqil, bitərəf, heç bir siyasi, şəxsi və regional maraqlarla əlaqəsi olmayan Davos Dünya İqtisadi Forumunun əsas məqsədi bütün ölkələrin dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatları, elm adamlarını, nüfuzlu siyasətçiləri, iqtisadçıları, biznesmenləri birliyə cəlb etmək, onların arasında əlaqə yaratmaqdan ibarətdir.*

*Bu gün dünyanın 1000-dən çox ən nüfuzlu şirkəti iqtisadi forumun üzvüdür. 1971-ci ildən sonra hər il keçirilən Davos forumunda dünyanın bir çox ölkələrinin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının rəhbərləri, ən görkəmli siyasi liderlər, biznesmenlər, elm xadimləri, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirlər. Davos iqtisadi forumu 30 ildir ki, dünya ölkələrinin qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da möhkəmləndirilməsində və inkişaf etdirilməsində özünəməxsus yer tutur.*

*Ölkəmizin müdrik rəhbəri Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi və xahişi ilə yenidən hakimiyyətə qayıtdıqdan sonra müstəqil Azərbaycan Respublikasının dünyanın bütün ölkələri, beynəlxalq təşkilatlar ilə sıx əlaqə qurmasına xüsusi diqqət yetirmişdir.*

*Azərbaycan Prezidenti Heydər Əliyev 1995-ci ilin yanvarında İsveçrəyə səfər etmiş və ölkəmiz ilk dəfə olaraq Davos iqtisadi forumunda təmsil olunmuşdu. Respublikamızın rəhbəri forumun sessiyalarında iştirak edərək nitq söyləmiş, bir sıra ölkələrin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların, dünyanın ən nüfuzlu maliyyə qurumlarının rəhbərləri ilə görüşlər keçirmiş, danışıqlar aparmış, gənc, müstəqil dövlətimizin qarşılaşdığı problemlərin, çətinliklərin aradan qaldırılması yolunda misilsiz xidmətlər göstərmiş və Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası yolunda irəliyə doğru mühüm addım atılmışdı.*

*Azərbaycan Prezidenti Heydər Əliyev bir daha Davos Dünya İqtisadi Forumunda iştirak etmək üçün bu il yanvarın 27-dən 30-dək İsveçrədə işgüzar səfərdə oldu. Dövlətimizin başçısının Davosa gəlməsi həqiqətən diqqət mərkəzində idi. Davos Dünya İqtisadi Forumunun prezidenti Klaus Şvab yanvarın 27-də respublikamızın rəhbəri Heydər Əliyev ilə görüşərək ali qonağı səmimiyyətlə salamladı, onun dəvətini qəbul edərək Davosa gəldiyinə görə minnətdarlığını bildirdi. O, cənab Heydər Əliyev kimi çox görkəmli bir liderin Davos iqtisadi forumunda iştirak etməsinin bu tədbirin nüfuzunu və əhəmiyyətini daha da artıracağına əmin olduğunu söylədi.*

*Yanvarın 27-də axşam Davos forumunun rəsmi açılış mərasimi oldu. Forumun təsisçisi və prezidenti Klaus Şvab mərasimi giriş sözü ilə açdı, iştirakçılara qarşıdakı işlərində uğurlar arzuladı.*

*Bu dəfəki foruma dünyanın 40-a yaxın ölkəsinin dövlət və hökumət başçıları, 300-ə*

*yaxın siyasi lider, beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının, 1200-dən artıq ən böyük şirkətlərin rəhbərləri, biznesmenlər, elm xadimləri, 500-dən çox jurnalist gəlmişdi.*

*"Yeni başlanğıclar: müsbət dəyişikliklərə nail olmaq" devizi altında keçirilən 2000-ci il Davos forumunda beş əsas məsələ: qloballaşmanın perspektivləri, sabit iqtisadi artım, informasiya texnologiyaları və biotexnologiya sahəsində inqilabların nəticələri, dünyada nadir fövqəldövlət kimi ABŞ-ın rolu əhatə olunmaqla yeni coğrafi siyasət və XXI əsrdə həyat səviyyəsinin yüksəldilməsi məsələləri müzakirə edildi.*

*Azərbaycan Prezidenti Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti sayəsində 2000-ci ilin Davos iqtisadi forumu ölkəmizin iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası yolunda yeni geniş üfüqlər açdı. Dövlətimizin başçısının Davosda keçirdiyi görüşlərdə, danışıqlarda müstəqil Azərbaycan Respublikasının dünya ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələrinin daha da möhkəmləndirilməsi, inkişaf etdirilməsi, respublikamızın qarşılaşdığı problemlərin aradan qaldırılması yolları barədə geniş müzakirələr aparıldı, xalqımızın haqq işinin dünya birliyinə tam aydınlığı ilə çatdırılması üçün sözün əsl mənasında misilsiz işlər görüldü.*

*Görkəmli dövlət xadimi Heydər Əliyevin liderliyi ilə Azərbaycan Respublikası dünya birliyində layiqli yer tutduğunu nüfuzlu beynəlxalq təşkilatlardan biri olan Davos forumunda bir daha nümayiş etdirdi.*

# Davos Dünya İqtisadi Forumunun işində







## *Bakıdan yoladüşmə mərasimi*

Azərbaycan Prezidenti Heydər Əliyev İsveçrənin Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 27-də bu ölkəyə işgüzar səfərə yola düşdü.

Dövlətimizin başçısı Heydər Əliyev yola düşməzdən əvvəl Binə hava limanında jurnalistlərin suallarına cavab verdi.

**Sual:** Cənab Prezident, səfərinizin məqsədi haqqında məlumat verməyinizi xahiş edirik.

**Cavab:** Səfərimin məqsədi Davos forumunda iştirak etməkdir. Bilirsiniz ki, bu, beynəlxalq forumdur, əsasən iqtisadi məsələlərə həsr olunur. Amma proqram almışıq, indi orada 90-dan artıq məsələ qoyulur. Bu, təkcə iqtisadi forum deyil, çox qlobal dünya məsələlərinə həsr olunan forumdur.

Mən bir dəfə, 1995-ci ildə bu forumda olmuşam. Hər il dəvət edilirəm, amma getməyə imkan, bəzən də ehtiyac olmayıbdır. Bu dəfə isə mən foruma getmək barədə qərar qəbul etmişəm, oraya gedirəm. Orada bölmələr var ki, Azərbaycan bilavasitə iştirak etməlidir. Məsələn, Böyük İpək yolu haqqında, Xəzər hövzəsi, dənizi haqqında, enerji resursları haqqında bölmələrdə Azərbaycanın bilavasitə iştirakı lazımdır. Ancaq vaxta baxacağıq. Orada çoxlu başqa da, maraqlı mövzular var. Yəqin ki, imkan dairəsində onlarda iştirak edəcəyəm.

Davosda ikitərəfli görüşlər çox ola bilər. Çünki oraya çox dövlətlərin başçıları gəlirlər. Artıq bir neçəsi ilə danışıqlarımız var ki, görüşəcəyik. Bir neçəsi ilə də danışıqlar aparılır. Bu forum respublikamız üçün çox faydalıdır, mənfəətlidir və buna görə də oraya gedirəm.

**Sual:** Cənab Prezident, Siz Bakı-Ceyhan layihəsi ilə bağlı sərmayələr cəlb olunması barədə danışıqlar aparacaqsınızmı?

**Cavab:** Bilirsiniz, bu sərmayəni biz cəlb etmirik, onu Türkiyə, konsorsium cəlb edir. Onlar da bunu artıq cəlb ediblər. Sərmayə məsələsində problem yoxdur. Mən keçən dəfə Rusiyadan, Moskvadan gələndə dedim ki, bir-iki məsələ qalıb, onlar da həll olunacaqdır.

**Sual:** Cənab Prezident, Klintonla görüş, yaxud da Koçaryanla görüşünüzdə onun iştirakı gözlənilirmi?

**Cavab:** Mən orada Koçaryanla mütləq görüşəcəyəm, biz bu barədə Moskvada danışmışıq. Klinton oraya gələcək, güman edirəm ki, onunla da görüş olacaqdır. Başqa dövlət başçıları ilə də görüşlər olacaqdır.

**Sual:** Dediniz ki, orada Xəzər hövzəsi ilə əlaqədar danışıqlar olacaqdır.

**Cavab:** Danışıqlar yox, müzakirələr gedir, müxtəlif ekspertlər hərə öz fikirini deyir. Əlbəttə ki, orada bizim fikrimiz çox əhəmiyyətlidir. Orada elə bir konkret sual yoxdur ki, buna cavab verəsən. Ümumi fikir mübadiləsi gedir.

**Sual:** Hazırda Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının FİFA-dan çıxmaq ehtimalı yaranıbdır. Bu, Azərbaycan idmanına necə təsir göstərə bilər?

**Cavab:** Bilirsən, mən idmanla o qədər məşğul olmuram. Amma hesab etmirəm ki, Azərbaycan FİFA-dan çıxacaqdır. Mən gələn kimi dedilər ki, səlahiyyətli regional futbol federasiyalarının hamısı toplaşıb və bizim çox yaxşı futbolçumuz məşhur bir şəxs olan Ələkbər Məmmədovu sədr seçiblər. Hesab edirəm ki, bu, ən düz qərardır. Çünki, bilirsən, çəkməçi çəkmə tikməlidir, aşpaz aş bişirməlidir, dərzi paltar tikməlidir, başqaları da hərə öz işini görməlidir. Futbol elə şeydir ki, gərək burada futbol mütəxəs-

sisi olsun. İndiyə qədər Musayev özünü oraya təyin etmişdi. Doğrudur, deyirlər ki, gənc vaxtlarında futbol oynamışdır. Bilirsiniz ki, sonra biz onu Mərkəzi Komitəyə işə götürmüşdük, hətta Komunist Partiyasının katibi təyin olunmuşdu. Amma o, nəyisə edə bilməyəndə bəzi adamlar zarafatla mənə deyirdilər ki, ondan narahat olmayın, çünki futbolçudur, futbol oyununu başa düşür. Amma ola bilər, yarım futbolçu, yarım belə, – bu yaxşı deyildir.

Hər dövrün bir tələbi var. Müəyyən bir dövr olubdur. İndi futbolumuz güclənir. Görürsünüz, hər şeydə qayda-qanun yaranır. Ölkədə qanunsuzluq, özbaşınalıq, hakimiyyətsizlik olanda hərə öz əlinə bir şey keçirmişdi. 1990-cı ildən başlayaraq siz bunları görmüsünüz. İndi hər şeydə qanun-qayda yaranır, hər şey qanun çərçivəsində gedir. Burada da futbolçular özləri bunu ediblər. Sən isə mənə sual verirsən ki, biz FİFA-dan çıxacağıq? Çıxmayacağıq!

**Sual:** Cənab Prezident, "Yevromani" fondunun məlumatına əsasən, Azərbaycan korrupsiyanın səviyyəsinə görə dünyada 3-cü yerə çıxıbdır.

**Cavab:** Bilirsiniz mən bu fondu tanımıram. Sən də bir fond yarada bilərsən, sorğu keçirib gəlib deyərsən ki, nə bilim, filan olubdur. Mən bu fondu tanımıram. Korrupsiya dünyada hər yerdə var, hər ölkədə var. Həmin o fondun sorğu keçirdiyi ölkədə də var. Azərbaycanda da var. Əgər eşitmisinizsə, mən bunu dünən keçirdiyim müşavirədə demişəm. Bundan sui-istifadə etmək lazım deyil, anlayırsınızmı? Burada min dənə iş görülür. Ancaq müxalifət, o cümlədən siz elə korrupsiyanın quyruğundan tutmusunuz. Sən cavan qızsan, heç bilirsən korrupsiya nədir? Mən korrupsiya ilə mübarizə aparanda sən hələ anadan olmamışdın.

Daha kimin sualı var?

**Sual:** Cənab Prezident, Siz həmişə öz çıxışlarınızda 20 yanvar şəhidlərinin xatirəsinə böyük qiymət vermisiniz. Şəhidlər xiyabanının bir nömrəli posta çevrilməsi barədə nə fikirdəsiniz?

**Cavab:** Bəli, çevriləcəkdir, O da bizim fikrimizdir. Yəqin sən haradansa eşitmisən, mənə sual verirsən. O, bizim fikrimizdir.

**Sual:** Cənab Prezident, şəhərin elektrik enerjisi ilə tam təmin edilməsi nə vaxt mümkün olacaqdır?

**Cavab:** Dünən axşam eşitdiniz, televiziyaya qulaq asdınız? Bütün göstərişləri vermişəm.

Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyevi Binə hava limanında Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, digər rəsmi şəxslər yola saldılar.



## *Azərbaycan Prezidenti Heydər Əliyevin İsveçrəyə gəlişi*

Azərbaycan Prezidenti Heydər Əliyevin İsveçrəyə gəlişi



Azərbaycan Prezidenti Heydər Əliyev Davosda keçirilən Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 27-də İsveçrəyə gəldi.

İsveçrənin Sürix şəhərinin beynəlxalq hava limanında dövlətimizin başçısı Heydər Əliyevi bu ölkənin bir sıra yüksək vəzifəli şəxsləri, Azərbaycanın Almaniyadakı səfiri Hüseynağa Sadıqov, respublikamızın Cenevrədəki daimi nümayəndəsi İsfəndiyar Vahabzadə qarşıladılar.

Azərbaycan Prezidenti Heydər Əliyev və onu müşaiyiət edən şəxslər Sürixdən avtomobillərlə Davosa gəldilər.


GER HOTEL BELVEDERE



# *Azərbaycan Prezidenti Heydər Əliyevin Davos Dünya İqtisadi Forumunun prezidenti Klaus Şvab ilə görüşü*

Yanvarın 27-də İsveçrəyə işgüzar səfərə gəlmiş Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Davosda Dünya İqtisadi Forumunun prezidenti Klaus Şvab' ilə görüşdü.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan, dəvəti qəbul edərək Dünya İqtisadi Forumunda iştirak etmək üçün Davosa gəldiyinə görə respublikamızın rəhbərinə minnətdarlığını bildirən cənab Şvab Prezident Heydər Əliyevin 1995-ci ildə Davosa səfərini həmişə məmnunluqla xatırladığını nəzərə çarpdırdı.

Cənab Heydər Əliyev kimi bir liderin Davos iqtisadi forumunda iştirak etməsinin bu tədbirin nüfuzunu və əhəmiyyətini daha da artıracağına əmin olduğunu söyləyən cənab Şvab dedi: Cənab Prezident, Sizin iştirakınızla keçiriləcək "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" sessiyasına əvvəlcədən böyük maraq göstərilir. Həmin sessiyada iştirak etmək istəyənlərin çox olduğunu söyləyən cənab Şvab ümid etdiyini bildirdi ki, bu tədbir Qafqaz regionu ölkələrinin bir sıra problemlərinin həllində böyük əhəmiyyət daşıyacaqdır.

Dünyanın bütün ölkələrinin Qafqaza böyük maraq göstərdiyini bir daha xatırladan cənab Şvab öz qapılarını dünyanın üzünə geniş açmış müstəqil Azərbaycan Respublikasının bu regionda aparıcı ölkələrdən biri olduğunu hamının dərk etdiyini bildirdi.

Prezident Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanın zəngin enerji ehtiyatlarının dünyanın ən nüfuzlu neft şirkətləri ilə birgə işlənilməsi üçün imzalanmış böyük əhəmiyyətli müqavilələrdən söhbət açan Dünya İqtisadi Forumunun prezidenti Azərbaycanda aparılan iqtisadi islahatlar haqqında da müəyyən məlumatı olduğunu vurğuladı.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə dair 1999-cu ildə İstanbulda imzalanmış saziş haqqında son vaxtlar mətbuatda çoxsaylı məqalələr oxuduğunu nəzərə çarpdıran cənab Şvab bu tarixi sənədi müstəqil Azərbaycanın bütün dünyada nüfuzunun daha da artmasının əyani nümunəsi kimi dəyərləndirdi.

Davos İqtisadi Forumunda dünyanın iqtisadi qloballaşması və liberallaşması sahəsində müzakirə olunacaq məsələlər barədə Prezident Heydər Əliyevə ətraflı məlumat verən cənab Şvab dedi ki, bu forumun məqsədi bütün ölkələri, beynəlxalq təşkilatları birliyə çağırmaqdan, dövlət, hökumət başçıları, siyasətçilər, biznesmenlər arasında daha sıx əlaqə yaratmaqdan ibarətdir.

Səmimi sözlərə, dəvətə və qonaqpərvərliyə görə minnətdarlığını bildirən Prezident Heydər Əliyev beş il bundan əvvəl ilk dəfə iştirak etdiyi Davos iqtisadi forumunu həmişə məmnunluqla xatırladığını vurğuladı.

Azərbaycanın xarici ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələrindən bəhs edən dövlətimizin başçısı respublikamızla əməkdaşlığın gündən-günə genişləndirilməsinə






marağın artmasında və ölkəmizə böyük həcmdə xarici investisiyaların cəlb edilməsində 1995-ci il Davos iqtisadi forumunun da xeyli köməyi olduğunu nəzərə çarpdırdı.

Xəzərin Azərbaycan sektorundakı və qurudakı zəngin enerji ehtiyatlarının dünyanın aparıcı ölkələrinin nüfuzlu şirkətləri ilə birgə istismarı üçün görülmüş işlərdən geniş söhbət açan Prezident Heydər Əliyev 1999-cu ilin noyabrında Amerika Prezidenti Bill Klintonun iştirakı ilə İstanbulda imzalanmış sənədlərin – Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri və Transxəzər qaz kəməri barədə sazişlərin tarixi əhəmiyyət daşıdığını bildirdi.

Söhbət zamanı Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında əlaqələrin genişləndirilməsi barədə də fikir mübadiləsi aparıldı.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin Davos İqtisadi Forumunda "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusunda sessiyada iştirakı*

Azərbaycan Prezidenti Heydər Əliyevin Davos İqtisadi Forumunda "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusunda sessiyada iştirakı

Yanvarın 27-də axşam Davos Dünya İqtisadi Forumunun rəsmi açılış mərasimi keçirildi.

Yanvarın 28-də Davos iqtisadi forumunda "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusunda sessiya keçirildi.

Sessiyada Azərbaycan Prezidenti Heydər Əliyev, Qırğızıstan Prezidenti Əsgər Akayev, Ermənistan Prezidenti Robert Koçaryan, Qazaxıstanın Baş naziri Qasımcomərd Tokayev, Türkiyənin xarici işlər naziri İsmayıl Cəm, İranın xarici işlər naziri Kamal Xərrazi iştirak edirdilər.

Sessiyanın mövzusu böyük maraq doğurmuşdu. Onun işində 500-dən artıq görkəmli xadim, siyasətçi, biznesmen, diplomat və başqaları iştirak edirdi. Sessiyanı Bi-Bi-Si televiziyasının İngiltərə üzrə təmsilçisi Nik Qovinq açdı. O, sessiyanın rəyasət heyətini təqdim etdi və toplantının işinə uğurlar arzuladı.

Sonra söz Qırğızıstan Prezidenti Əsgər Akayevə[2] verildi.






## *Qırğızıstan Prezidenti Əsgər Akayevin çıxışı*

Qırğızıstan Prezidenti Əsgər Akayevin çıxışı




– Hörmətli sessiya iştirakçıları!

Regional əməkdaşlığın yaxşılaşdırılması ilə bağlı çox vacib məsələ qaldırmaq istəyirəm.

Hesab edirəm ki, iki amil – ölkələrimiz arasında kommunikasiyaların açıqlığı və inkişafı, neft və qazın nəqli ilə yanaşı, bölgəmizdəki ölkələrin inkişafının ən güclü amillərindəndir.

Bir neçə il əvvəl mən belə regional əməkdaşlığın inkişafının zəmini kimi Böyük İpək yolu diplomatiyası doktrinasını təklif etmişdim. Uzun əsrlər ərzində Böyük İpək yolu ölkələrimizi ticarət-iqtisadi, mədəni-humanitar və siyasi-diplomatik baxımdan birləşdirmişdir. Böyük İpək yolunun işlədiyi dövrlərdə ölkələrimiz çiçəklənən məmləkətlər və Qərblə Şərq arasında körpü, ticarət və mədəniyyətin mühüm mərkəzləri olmuşdur. Zənnimcə, məhz Böyük İpək yolunun dirçəldilməsi XXI əsrdə bizə regional əməkdaşlığımızı yenidən yüksəltməyə, onu səmərəli etməyə, ölkələrimizə öz iqtisadi inkişafını gücləndirməyə, xalqlarımızın həyatını yaxşılaşdırmağa kömək göstərməyə imkan verəcəkdir.

Həmçinin əminəm ki, Böyük İpək yolunun dirçəldilməsi bölgəmizə sülh, sabitlik, səmərəli əməkdaşlıq və bərabər hüquqlu tərəfdaşlıq gətirəcəkdir.

Əlbəttə, Böyük İpək yolunun dirçəldilməsi üçün biz ənənəvi kommunikasiyaları bərpa etməliyik və bu baxımdan Avropa Birliyi Avropa ilə Mərkəzi Asiya ölkələri arasında nəqliyyat dəhlizi yaradılmasına dair çox mühüm təşəbbüs irəli sürərək, TRASEKA adlı layihə təklif etmişdir. Digər tərəfdən, indi Şərqdə biz də Qırğızıstandan keçən Böyük İpək yolunu yenidən qururuq. Bu, Çinə açılan müasir qapı olacaqdır. Çinlə birlikdə biz dəmir yolu layihəsi də həyata keçiririk. Bu yol gələcəkdə Fərqanə vadisi ilə Çin arasında əlaqə yaratmalı və beləliklə, bölgənin burada yerləşən ölkələri üçün Çinə, Hindistana, Pakistana, Cənub-Şərqi Asiya ölkələrinə çıxış qapısı açmalıdır.

Çıxışımı bitirərək demək istəyirəm ki, XXI əsrdə məhz Böyük İpək yolunun dirçəldilməsi, intibahı indi burada Böyük İpək yolunun üstündə yerləşən ölkələrlə təmsil edilən bölgənin iqtisadi inkişafı və çiçəklənməsinin əsas amili olacaqdır. Çox sağ olun.

Sonra Azərbaycan Prezidenti Heydər Əliyev sessiyada çıxış etdi.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı*

– Hörmətli xanımlar və cənablar!

Böyük İpək yolunun bərpası barədə məsələ bu forumda müzakirə obyektinə çevrildiyinə görə mən Davos iqtisadi forumunun təşkilatçılarına təşəkkür edirəm. Bu, müəyyən dərəcədə qanunauyğundur və bugünkü gerçəkliyi əks etdirir.

Böyük İpək yolu bəşəriyyətin tarixində, xüsusən Avrasiya kontinentinin tarixində dərin iz buraxıb və vaxtilə Avropa ilə Asiya arasında yüklərin daşınmasında çox böyük rol oynamışdır.

Ötən yüzillikdə, 80-ci illərdən etibarən bu problem aktual olmuşdur və çox diqqətəlayiq haldır ki, bir çox ölkələrdə dərhal təşəbbüs irəli sürülmüşdür. Ona görə də indi bir çox ölkələr Böyük İpək yolu diplomatiyasını öz təklifi hesab edirlər.

Ancaq eyni zamanda biz YUNESKO-nun bu barədə 1980-ci ildəki qərarını və bəzi sonrakı qərarları xatırlamalıyıq. Lakin Böyük İpək yolunun real surətdə bərpası Sovetlər İttifaqının süqutundan və Cənubi Qafqaz, Mərkəzi Asiya ölkələri dövlət müstəqilliyi əldə etdikdən sonra mümkün olmuşdur. Bunsuz Böyük İpək yolunun bərpası qeyri-mümkün, qeyri-real idi.

Avropa Birliyi TRASEKA proqramını irəli sürməklə bunun əsasını qoymuşdur. Amma 1993-cü ildən başlayaraq bu iş çox ləng gedirdi. Xəzər dənizinin enerji ehtiyatlarından geniş istifadə üçün imkanlar açılması və nəinki Xəzəryanı ölkələrin, həm də bir çox Avropa ölkələrinin, Amerika Birləşmiş Ştatlarının, Yaponiyanın, digər dövlətlərin bu işə fəal cəlb olunması isə Transqafqaz magistralı yaradılmasını çox mümkün etmişdir.

Biz – Özbəkistan, Türkmənistan, Azərbaycan və Gürcüstan 1996-cı ildə Türkmənistanın Sərəxs şəhərində dördtərəfli saziş imzalayaraq, bu magistralı ilk dəfə






açdıq. Həmin vaxtdan bəri Transqafqaz nəqliyyat magistralı ilə yüklər daha fəal surətdə daşınmağa başlamışdır. Əgər 1996-cı ildə bu dəhlizlə 2 milyon ton yük nəql edilmişdisə, indi 5 milyon ton yük daşınır. Bu isə yalnız başlanğıcdır, böyük perspektiv var.

Bu baxımdan Böyük İpək yolunun bərpası və TRASEKA proqramının reallaşdırılması haqqında 1998-ci ilin sentyabrında Azərbaycanda, Bakıda Avropa Komissiyası ilə birlikdə keçirilmiş beynəlxalq konfransın mühüm rolu olubdur. Bu konfransda 32 ölkənin və 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak edirdilər. Biz həmin məsələyə dair xüsusi saziş qəbul etdik, onu 12 ölkə imzaladı və indi o, həyata keçirilir. Bu proqramın reallaşdırılması üzrə daimi katiblik Azərbaycanda, Bakıda yerləşir.

Lakin, təkrar edirəm, Xəzər dənizinin enerji ehtiyatlarından fəal istifadə olunması bütün bunlara böyük təkan verdi. Avropa Birliyinin müxtəlif boru kəmərləri yaradılması proqramı – İNOQEYT proqramı da bununla əlaqədar meydana gəlmişdir.

Artıq indi Xəzər dənizində – onun Azərbaycan sektorunda, Qazaxıstan və digər sektorlarında böyük neft və qaz yataqları real surətdə işlənilir. Biz konkret praktiki nəticələr əldə etmişik. Artıq Qara dənizə doğru Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərləri çəkilmiş, uzunluğu 2 min kilometrdən çox olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası haqqında proqram qəbul olunmuşdur. Bütün bunlar – neft və qazın nəqli, Avrasiya qitəsi yüklərinin daşınması, əlbəttə, Böyük İpək yolunun bərpasını tamamilə reallaşdırır. Biz həmin prosesin başlanğıc mərhələsindəyik və hesab edirəm ki, bu, Avrasiya qitəsi və bütün dünya birliyi üçün ən aktual problemdir. Diqqətinizə görə sağ olun.

Sonra Ermənistan Prezidenti Robert Koçaryan[3] çıxış etdi.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI





## *Ermənistan Prezidenti Robert Koçaryanın çıxışı*

Ermənistan Prezidenti Robert Koçaryanın çıxışı

– Diskussiyamızın mövzusu "İpək yolu və ya böyük oyun"dur. Belə düşünürəm ki, İpək yolu reallığa yaxın bir şeydir və hazırda bölgədə baş verən proseslər – TRASEKA, İNOQEYT kimi müxtəlif beynəlxalq proqramlar buna dəlalət edir.

Lakin mənə elə gəlir ki, bu, məlum səbəblərə görə həm də böyük oyundur. Yəni burada "ya o, ya da bu" formulundan istifadə etmək düzgün deyildir. Burada həm reallığa yaxın nə isə bir şey var, həm də böyük oyun. Nə üçün? Zənnimcə, sadəcə, xəritəyə baxmaq kifayətdir – bu, Avropadan Mərkəzi Asiyaya həqiqətən ən kəsə yoldur, onun davam etdirilməsi mümkündür. Bundan başqa, siyasi xəritəyə baxsaq görərik ki, bu, həm də kiçik, hələlik zəif, transformasiya vəziyyətində olan və ciddi, müstəqil siyasi intriqası olmayan ölkələrdən keçən yoldur. Bir qədər cənubda, bir qədər şimalda – bu, intriqadır, ona çox ciddi maraq göstərilir.

Xəzərdə karbohidrogen ehtiyatlarının olması və Mərkəzi Asiyada ciddi ehtiyat potensialının olması bu proqramları xüsusilə cazibədar edir. Mən belə güman edirəm ki, bütün bunlar birlikdə həqiqətən böyük siyasətin də, böyük oyunun da mövzusuna çevrilir.

Bu baxımdan Cənubi Qafqaz xüsusi rol oynayır. Çünki bu yol Mərkəzi Asiyaya gedir, bu, butılkanın boğazına oxşayır və burada beynəlxalq birlik üçün cəlbedici nə isə var. Bu mənada Cənubi Qafqaz və Mərkəzi Asiya bölgələrinin bütün ölkələri ümumi marağa malikdirlər. Odur ki, sual olunur: böyük oyun bu layihənin həyata keçirilməsinə mane olurmu, bu oyun bölgə ölkələrinin xeyrinədirmi və ya ciddi iqtisadi layihələrin reallaşdırılmasını stimullaşdıra bilərmi? Güman edirəm ki, burada birmənalı cavab yoxdur – cavab həm müsbət, həm də mənfi ola bilər. Cənubi Qafqaz və Mərkəzi Asiya bölgələri ölkələrinin nə dərəcədə əlbir hərəkət etməsindən və belə bir işi nə dərəcədə görə biləcəyimizdən çox şey asılı olacaqdır ki, həmin layihələrin həyata keçirilməsi istər cənubdakı, istərsə də şimaldakı qonşu ölkələrin mənafelərinə qarşı qoyulmasın.

Düşünürəm ki, bu layihələr düzgün həyata keçirilərsə, Cənubi Qafqaz təkcə Qərbdən Şərqə doğru deyil, həm də Şərqdən Qərbə doğru yolun qovuşacağı ola bilər. İstər siyasi xəritənin, istərsə də coğrafi xəritənin ötəri şəkildə nəzərdən keçirilməsi göstərir ki, Cənubi Qafqaz həm şimaldan cənuba, həm də cənubdan şimala gedən yolda ciddi qovuşacağa, ciddi nəqliyyat arteriyasına çevrilə bilər. Buna görə də nəyə xüsusi diqqət yetiriləcəyindən, ümumiyyətlə, siyasi vəziyyətin necə inkişaf edəcəyindən, regionumuzun qarşıdurma meydanına çevrilib-çevrilməyəcəyindən, burada yeni ayırıcı xətlərin meydana gəlib-gəlməyəcəyindən, yaxud regionun komplementar yolla, mənafelərin qarşı-qarşıya qoyulması yolu ilə deyil, onların birləşdirilməsinə cəhd göstərilməsi yolu ilə gedəcəyindən çox şey asılıdır.

Hesab edirəm ki, bu gün həyata keçirilən layihələr hər halda bizi ona doğru aparır ki, İpək yolu reallığa çevriləcəkdir. Buna görə də mənə elə gəlir ki, indi layihənin, regional təhlükəsizlik sistemi yaradılması haqqında İstanbul zirvə görüşündə də çox aktual səslənmiş təklifin əməli surətdə həyata keçirilməsinə başlamaq sadəcə olaraq zəruridir. Məncə, bu sistem hərbi vəziyyəti donduraraq, regiona arzu olunan istiqamətdə həqiqətən inkişaf etmək imkanı verərdi. Regionun tərəqqisi, ayırıcı xətlərin olmaması bu inkişafın yekunu olardı. Sağ olun.

Qazaxıstanın Baş naziri Qasımcomərd Tokayevə[4] söz verildi



## *Qazaxıstanın Baş naziri Qasımcomərd Tokayevin çıxışı*

Qazaxıstanın Baş naziri Qasımcomərd Tokayevin çıxışı

– Mərkəzi Asiyadan danışarkən diqqətinizi belə bir fakta cəlb etmək istərdim ki, Mərkəzi Asiya ölkələri liderlərinin siyasi iradəsi bizə Mərkəzi Asiya adlandırılan çox böyük regionda təhlükəsizliyi və etimad yaradılması tədbirlərini qorumağa imkan verir. Hesab edirik ki, bu fakt əsas tutularaq, bölgədə təhlükəsizliklə bağlı bütün məsələlər uğurla həll olunmuşdur.

Fürsətdən istifadə edərək, bölgədə təhlükəsizlik sistemi yaratmaq barədə Qazaxıstanın ideyasına – yəni Mərkəzi Asiyada təhlükəsizlik məsələlərinin müzakirəsinə, təhlükəsizliyin möhkəmləndirilməsinə dair konkret tədbirlər hazırlanması üçün dövlət başçılarının konfransını çağırmaq ideyasına diqqəti cəlb etmək istərdim.

Biz belə bir fakta çox şadıq ki, sentyabrın 14-də Asiyanın 20 ölkəsinin xarici işlər nazirləri Qazaxıstana gələrək, təhlükəsizlik və etimad mühiti yaradılması məqsədi ilə Mərkəzi Asiya ölkələri və Asiya ölkələri arasında münasibətlərin prinsipləri haqqında bəyannamə imzalamışlar.

Biz Mərkəzi Asiyadan, eləcə də Qafqazdan danışarkən Rusiyada inkişaf problemlərinin, xüsusən Çeçenistanda vəziyyətin müzakirəsindən yan keçə bilmərik. Mən bununla əlaqədar Qazaxıstanın mövqeyi barədə bir neçə kəlmə demək istərdim. Qazaxıstan hər cür separatizmin tamamilə əleyhinədir. Çeçenistan Rusiyanın bir hissəsidir. Bununla belə, biz yer kürəsinin bu hissəsində gedən hərbi əməliyyatların miqyasından narahatıq. Beynəlxalq birliyin bütün ölkələri kimi, biz də bu bölgədə mülki əhalinin vəziyyətindən çox narahatlıq keçiririk.

Biz Mərkəzi Asiyadan, o cümlədən Qazaxıstandan danışarkən neft məsələsindən yayına bilmərik. Bilirsiniz ki, bizim dənizə çıxışımız yoxdur və boru kəmərlərinin çəkilməsi bizim üçün olduqca vacibdir. Bu boru kəmərləri bizə Qazaxıstandan neft və qazı beynəlxalq bazarlara ixrac etməyə imkan verərdi. Buna görə də demək istərdim ki, bu baxımdan Qazaxıstan heç bir siyasi xürafata qapılmır. Bu, siyasi məsələ deyildir və zənnimcə, nə qədər çox boru kəməri olarsa, bu, Qazaxıstana bir o qədər faydalı olacaqdır.

Bununla belə, bizim öz öncül istiqamətlərimiz var. Bu layihələrin yaradılması, əsaslandırılması imkanlarını nəzərə alaraq, ilk növbədə boru kəmərlərimizin Qara dəniz limanlarına, habelə Türkiyəyə, Çinə çıxması bizim üçün ən öncül məsələdir. Biz İrandan da keçən boru kəməri çəkilməsinin mümkünlüyünü istisna edə bilmərik.

Qırğızıstan Prezidentinin təqdim etdiyi konsepsiyaya Qazaxıstan müsbət yanaşır. Biz bu konsepsiyanın yerinə yetirilməsi üçün əlimizdən gələni əsirgəməyəcəyik. Biz TRASEKA və İNOQEYT kimi proqramları da dəstəkləyirik. Bildiyiniz kimi, Qazaxıstan çox geniş ərazidə yerləşir və kommunikasiyalar bizim üçün böyük əhəmiyyətə malikdir. Odur ki, biz bu mühüm layihələrin yerinə yetirilməsinə böyük töhfə verə bilərik. Təşəkkür edirəm.

Sonra sədrlik edən sessiya iştirakçılarının öz suallarını verməlerinə imkan yaratdı.

**Sual:** Bilmək istərdim, Azərbaycandan və Ermənistandan keçməli olan sülh neft kəməri ideyası nə yerdə qaldı? Prezident Heydər Əliyev keçmişdə buna diqqət yetirirdi. Bu fikri yenidən dirçəltmək olarmı? Cənab prezidentlər, sizə müraciət edirəm: bu sülh neft kəməri İpək yolu proqramına daxildirmi?


WORLD ECONOMIC FORUM
ALIYEV
KOCHARIAN
GOWING
OKAYEV
CEM
KHARRAZI

**Heydər Əliyev:** İlk öncə ad barədə – sülh boru kəməri – mən bunu birinci dəfə eşidirəm. Sovetlər İttifaqında "Dostluq" boru kəməri olmuşdur, sülh neft kəməri isə sizin uydurmanızdır.

Azərbaycanda biz Xəzərdəki neft yataqlarının işlənilməsinə başlamışıq, orada çox böyük neft və qaz ehtiyatları var. Yeri gəlmişkən, indi bəziləri Qərbdə də, Şərqdə də, Rusiyada da, Avropada da yazırlar ki, Xəzər dənizindəki neft və qaz ehtiyatları şişirdilmişdir. Bu, tamamilə yalandır. Azərbaycan neftçiləri, geoloqları, alimləri Xəzər dənizində 50 ildən artıqdır işləyirlər və biz real imkanları yetərincə öyrənmişik. Odur ki, biz bütün dünyaya nə təqdim etmişiksə, bunlar realdır. Bu, birincisi.

Biz "Əsrin müqaviləsi" adlanan və Azərbaycanın 1994-cü ilin sentyabrında Avropa və Birləşmiş Ştatların bir çox neft şirkətləri ilə imzaladığı birinci layihənin həyata keçirilməsinə başladıqda, qarşıya neft kəməri məsələsi çıxdı. Biz bu neft kəmərinin Ermənistan, Türkiyə vasitəsilə Ceyhan limanına çəkilməsinin əleyhinə deyildik. Biz bu neft kəmərinin İran ərazisindən çəkilməsinin də əleyhinə deyildik. Lakin bu təkliflərimiz reallaşmadı. Əvvəla, ona görə ki, Ermənistan Azərbaycanla hərbi münaqişə vəziyyətindədir. Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini, bu neft kəmərinin keçməli olduğu ərazini işğal etmişlər və danışıqlarda erməni tərəfinə təkliflər vermişdik ki, münaqişəyə beynəlxalq hüquq əsasında son qoymaq və bu neft kəmərini çəkmək yaxşı olardı. Lakin onların cavabı bu oldu ki, biz torpağı neft kəmərinə dəyişmirik, halbuki məsələ belə qoyulmamışdı. "Sülh neft kəmərinin baş tutmaması" barədə sualınızla bağlı vəziyyət belədir.

Sonra apardığımız bütün iş nəticəsində Bakı-Tbilisi-Ceyhan layihəsi meydana gəldi. Biz noyabrda İstanbulda bu neft kəmərinin inşası haqqında saziş imzaladıq. İndi hazırlıq işi gedir və bu layihə həyata keçiriləcəkdir.

**Sual:** Neftin boru kəmərləri ilə nəqli barədə sual vermək istərdim. Bu gün neftin qiyməti çox yüksəkdir, halbuki 12 ay bundan əvvəl onun qiyməti çox aşağı idi. Siz qiymətlər haqqında məsələni şərh etmək istərdinizmi? Bu, neftin qiymətinin nağd pula çevrilməsi və bu regionda istifadə edə biləcəyiniz ehtiyatlar baxımından Sizə nə kimi üstünlük verir?

**Heydər Əliyev:** Neftin qiymətini biz tənzimləmirik. Biz sadəcə olaraq, qiymət konyunkturasına tabeyik. Bəli, bir müddət əvvəl neftin qiyməti aşağı düşmüşdü, indi isə qalxıbdır. Bizim məlumatımıza görə, bu meyl qalacaqdır. Ancaq bu, neft aləmində təzə məsələ deyildir. Əgər tarixə, məsələn, son 30 ilə nəzər salsaq, görərik ki, neftin qiymətinin aşağı düşdüyü dövrlər də, qalxdığı dövrlər də olmuşdur. Ona görə də neft kəməri tam rentabelliyə malikdir.

**Sual:** Bu o deməkdirmi ki, neftin qiyməti qalxarsa, onda Siz İnfrastruktur layihələrinizdən bəzilərini həyata keçirə biləcəksiniz?

**Heydər Əliyev:** Neftin qiyməti hətta bugünkü qiymətlərdən yuxarı qalxmasa da, neft layihələrimiz həyata keçiriləcəkdir. Qiymətlər hətta aşağı düşsə də, onlar yenə də həyata keçiriləcəkdir, çünki bilirik ki, qiymətlər sonra yenidən qalxacaqdır.

**Sual:** Qazaxıstan nümayəndələrinə müraciət etmək istərdim. Onlar xüsusən avqustda Qırğızıstanda baş vermiş hadisələrlə əlaqədar təməlçiliyin inkişafına necə münasibət göstərmək fikrindədirlər? Bu islam hərəkatlarının bir çoxu Əfqanıstandadır, onlar yerli əhaliyə təsir göstərirlər. Siz bütün bunlara necə baxırsınız? Bu, regionun sabitliyi üçün çox mühümdür.

**Əskər Akayev:** Əlbəttə, dini ekstremizm bölgəmizdə sabitliyə, təhlükəsizliyə təsir göstərə biləcək, sabitliyi poza biləcək ən ciddi amillərdən biridir. Bunun Mərkəzi Asiya bölgəsinin bütün ölkələrinə dəxli var. Bu, hazırlıq bazaları Əfqanıstanda olan beynəlxalq terrorizmlə, habelə narkotik vasitələrin getdikcə artan axını ilə bilavasitə bağlıdır. Odur ki, bölgəmizin ölkələri dini ekstremizmin, terrorizmin və narkobiznesin təsirinin






genişlənməsinə müqavimət göstərmək üçün var qüvvə ilə çalışmalıdırlar. Biz bölgəmizdə sabitliyi pozan bu üç ən təhlükəli amilə qarşı mübarizədə imkanlarımızı, ehtiyatlarımızı birləşdirməyə səy göstəririk. Sağ olun.

**Qasımcomərd Tokayev:** Bölgədə islam radikalizminə qarşı mübarizə ilə əlaqədar Qazaxıstanın mövqeyi barədə mən də bir neçə kəlmə demək istərdim. Biz bundan çox narahatıq və hesab edirik ki, bütün Mərkəzi Asiya ölkələri bu hala, bu çox təhlükəli meylə qarşı mübarizə aparmaq üçün birgə tədbirlər görməlidirlər.

İslam radikalizmi Mərkəzi Asiyada yayılmaqdadır və bütün planlarımız, dinc layihələrimiz və ən əvvəl isə neft biznesinə aid layihələrimiz bundan zərər çəkə bilər. Biz hesab edirik ki, Mərkəzi Asiya sülh bölgəsi olmalıdır və islam ekstremizminin və terrorizmin bütün meyllərinə qarşı mübarizə aparmaq lazımdır.

Narkobiznes də Mərkəzi Asiya üçün böyük problemdir və bizi bu da çox narahat edir. Biz bölgəmizdə bu meylə qarşı mübarizə aparmaq üçün beynəlxalq birliklə əl-ələ verib mümkün olan bütün tədbirləri görəcəyik. Təşəkkür edirəm.

Sonra sessiyanın sədri Türkiyənin xarici işlər naziri İsmayıl Cəmə[5] söz verdi.

## *Türkiyənin xarici işlər naziri İsmayıl Cəmin çıxışı*

Türkiyənin bu regionda oynaya biləcəyi rolu aşağıdakı kimi müəyyənləşdirmək və bu rolu daha geniş səpkidə götürmək olar.

"Soyuq müharibə" dövründən sonra meydana gələn yeni müstəqil dövlətlərin, demək olar, hamısı Mərkəzi Asiyaya, Cənubi Qafqaza və ya Balkan bölgəsinə aiddir. Türkiyə bu ölkələrlə ümumi tarixə, ümumi dilə və ya ümumi dinə malikdir. Bu, ölkəmizin ətrafında yeni beynəlxalq mühit – tarixi və mədəni əhəmiyyəti olan mühit yaradır. Bundan başqa, bu, bizə həmin ölkələrin iqtisadiyyatının inkişafına kömək etmək imkanı verir və biz bu sahədə mühüm rol oynamaq niyyətindəyik, çünki Qafqaz və Mərkəzi Asiya ölkələrinin böyük iqtisadi tərəfdaşıyıq.

Hesab edirik ki, Türkiyə mühüm rol oynaya bilər və bu rol demokratiya, plüralizm, iqtisadi inkişaf əsasında müəyyən olunacaqdır. Düşünürük ki, biz bütün bu regionun əmin-amanlığına və inkişafına əhəmiyyətli töhfə verə bilərik. Bunu başqa şəkildə də – Türkiyə ilə az-çox paralel, yaxud oxşar mədəni, tarixi və ya dini zəminlərə malik olan ölkələr üçün, xalqlar üçün modernləşdirmə modeli kimi, paradiqması kimi də müəyyənləşdirmək mümkündür.

Hesab edirik ki, bu paradiqma, bu model bizə sekulyarizm, insan hüquqları, kişilərlə qadınlar arasında bərabərlik, inkişaf kimi dəyərlərə diqqət yetirməyə imkan verəcəkdir. Əlbəttə, bu, hökmən ixrac edə biləcəyimiz model deyildir. Lakin başqa ölkələr Türkiyənin inkişaf modelindən istifadə edə və ondan müəyyən qədər bəhrələnə bilərlər.

Biz bu yolda nə edə bilərik? Deyə bilərəm ki, tarixi baxımdan Türkiyə həmişə müxtəlif sivilizasiyalar arasında, Şərqlə Qərb arasında körpü olmuşdur. Hesab edirik ki, indi, Türkiyə Avropa Birliyinə daxil olmaqdan ötrü öz namizədliyini irəli sürdükdən sonra ölkəmizin rolu artdığına görə o, həmin siyasətin Mərkəzi Asiya və Qafqaz üçün həyata keçirilməsində yeni vasitələrə malik ola bilər və bununla da Şərqi və Qərbi Avropa arasında əlaqə yaradar.

Ortaya çıxan bəzi problemlərdən danışmaq istərdim. Biz Cənubi Qafqazdakı münaqişədə sakitləşdirici rol, bəlkə də münsif rolu oynayırıq. Biz Cənubi Qafqaz ölkələrinin, xüsusən Gürcüstanın müstəqilliyinin inkişafına müəyyən yardım göstərməyə çalışırıq. Mən tamamilə razıyam ki, Gürcüstan bizim tərəfimizdən daha böyük diqqət cəlb edə biləcək ölkədir.

Mən Mərkəzi Asiyanın və Cənubi Qafqazın gələcəyinə inanıram, yeni reallıqların yaranacağına, həyata keçirməyə çalışdığımız bu sabitlik paktının üstünlüyünə inanıram. İndi baxırıq ki, Qafqazda belə paktın yaranmasına münasibət necə olacaqdır.

Sonra İranın xarici işlər naziri Kamal Xərrazi[6] çıxış etdi.



## *İranın xarici işlər naziri Kamal Xərrazinin çıxışı*

– Deyə bilərəm ki, mən İpək yolu konsepsiyası ilə razılaşıram. Bu, sivilizasiyalar arasında dialoq konsepsiyasına uyğundur. Lakin mən böyük oyun yaradılması konsepsiyası ilə razılaşmıram, çünki indi biz Sovet İttifaqının süqutundan sonra bu regionda meydana gəlmiş müstəqil ölkələrin reallıqları ilə qarşılaşırıq.

Bax, buna görə də başqa çıxış yolu yoxdur. Daha bu regionda böyük oyunlar həyata keçirilə bilməz, bundan söhbət də gedə bilməz. Əgər biz İpək yolu konsepsiyasını tətbiq edirіksə, onda İran bu konsepsiyadan çıxarılmayacaqdır. Bu, tarixin hökmüdür. İqtisadiyyatın reallıqları da bizi bununla hesablaşmağa vadar edir ki, İran bu İpək yoluna daxil olmalıdır. Yeri gəlmişkən, İranda bundan ötrü hər cür infrastruktur var.

Lakin əminəm ki, İpək yolu konsepsiyası həyata keçirilməlidir. Əgər biz İpək yolunun reallığa çevrilməsini istəyiriksə, onda bu yol hərbiləşdirilməməli, siyasiləşdirilməməlidir. Əgər biz İpək yolu konsepsiyasının həyata keçirilməsini həqiqətən istəyiriksə, bu bölgəyə mənsub olmayan heç bir dövlət burada hakim rol oynamamalıdır.

Zənnimcə, biz İpək yolunu qarşıdurma yolu ilə deyil, ancaq əməkdaşlıq, rəqabət vasitəsilə reallaşdıra bilərik. Ona görə də mənə elə gəlir ki, Beynəlxalq Əməkdaşlıq Təşkilatı bu işdə əhəmiyyətli rol oynaya bilər.

Siyasi qərarlar siyasi fikir ayrılıqlarına deyil, iqtisadi reallığa əsaslanmalıdır. Bu yolun həyata keçirilməsi üçün tətbiq edəcəyimiz meyarları belə təsəvvür etmək olar: məsrəflər baxımından iqtisadi həyat qabiliyyəti. Əlbəttə, mövcud infrastrukturlar müəyyən rol oynamalıdır və xərcləri aşağı salmaq üçün onlardan istifadə etmək lazımdır. Bu proqramda iştirak edən ölkələrin bazarlarını, təhlükəsizliyini və əlbəttə, sabitliyini də nəzərə almaq gərəkdir. Bütün bu amillər bir çox tranzit ölkələrdə belə yolun çəkilməsi üçün mühüm rol oynayır.

Enerjinin ötürülməsinə, tranzitinə gəldikdə isə, burada bizim öz planlarımız var. Söhbət bölgədə hasil olunan neftdən istifadə imkanından gedir. Bu, əsas amildir. İndi biz hər gün təxminən 800 min barrel neft çıxarırıq. Tehranda, Təbrizdə, digər şəhərlərdə zavodlarımız var. Onların hamısı Xəzər dənizinin neftini işlədir. İndi İranın Xəzər dənizi sahilindəki Neka qəsəbəsindən Tehranadək neft kəməri çəkilməsi məsələsi danışıqların mövzusudur. O, gündə 350 min barrel neftin nəqli üçün nəzərdə tutulmuşdur. Gələcəkdə daha bir neft kəməri çəkiləcəkdir. Bu neft kəməri ilə paralel olaraq gündə 460 min barrel neft nəql etmək mümkündür.

Yeni neft kəmərləri İranın cənubundan mərkəzinədək neft vuran mövcud boru kəmərlərinə qoşula bilər. Bu neft kəmərlərindən əks istiqamətdə də istifadə edərək, Xəzər dənizindən Cənubi İranadək hər gün 800 min barrel neft göndərmək, sonra isə İranın qurğuları vasitəsilə onu xaricə ötürmək olar. Zənnimcə, bununla da İran Xəzər dənizində çıxarılacaq neftdən hər gün 1 milyon 800 min barrel nəql etmək iqtidarındadır. Bax buna görə də bu faktlara əsaslanaraq hesab edirəm ki, Xəzər dənizindən başqa ölkələrə neftin və ümumən enerjinin tranziti barədə bir daha düşünmək lazımdır.

Əlbəttə, neftin digər bazarlara göndərilməsi üçün başqa neft kəmərləri və başqa yollar barəsində bizim heç bir etirazımız yoxdur. Təşəkkür edirəm.

Sonra sessiya iştirakçıları yenidən suallara cavab verdilər.

**Sual:** Mənim sualım bütün regionun sabitliyi barədədir. İran buna töhfə verə bilərmi? Biz bilirik ki, siz narkotiklər məsələsi ilə məşğul olursunuz. Lakin terrorizmə və radikalizmə gəldikdə, daha böyük sabitlik əldə edilməsinə nail olmaqda İranın töhfəsi nədən ibarət olacaqdır?

**Kamal Xərrazi:** Əlbəttə, İran bu sahədə rol oynaya bilər. O, narkotrafiklə, terrorizmlə mübarizədə artıq mühüm rol oynayır. İran mərkəzi Əfqanıstanda olan terrorizmin qarşısının alınmasında çox fəal rol oynayır. Biz bazaları Əfqanıstanda olan radikalizmlə də mübarizə aparırıq. Hər halda, biz bu meylləri dəstəkləmirik, onlarla mübarizə aparırıq.

Əlbəttə, biz qorxuruq ki, Əfqanıstanda tətbiq olunan ideologiya bütün bu regiona yayıla bilər. Bu isə, əlbəttə, regionumuzun bütün ölkələrini narahat edir. Odur ki, biz bu meylə qarşı mübarizə aparmalı və onu nəzarətdə saxlamağa çalışmalıyıq.

Bir sıra millətlərdə, bu millətlərin mədəniyyətində öz kökləri olan islamın düzgün başa düşülməsini təşviq etmək lazımdır. Zənnimcə, radikalizm məhz ona görə yayılır ki, lazımi təhsil yoxdur, islamın mahiyyəti lazımınca başa düşülmür. Əgər biz islamın mahiyyətinin daha yaxşı başa düşülməsini təşviq edə bilsək, bu, radikalizmə qarşı mübarizə aparmağımıza imkan verər.

**Sual:** Sual Azərbaycan və Ermənistan prezidentlərinədir. Siz iki ölkə arasında münaqişənin dincliklə nizama salınmasının perspektivlərini necə təsəvvür edirsiniz? Nəticə etibarilə Dağlıq Qarabağ barəsində saziş bağlanmasına imkan varmı? Daha bir sual. Ermənistan bu münaqişə nizama salındıqdan sonra Azərbaycan ərazisindən çıxmaq barədə düşünə bilərmi?

**Heydər Əliyev:** Dağlıq Qarabağ, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması məsələsi Azərbaycan üçün və zənnimcə, eyni dərəcədə Ermənistan üçün həyati əhəmiyyətə malikdir. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyi əldə etdikdə o, artıq münaqişə vəziyyətində idi. Sonralar genişlənərək müharibəyə çevrilən bu münaqişə nəticəsində Azərbaycanın Dağlıq Qarabağ vilayətinin ərazisi və Dağlıq Qarabağın hüdudlarından kənardakı böyük bir ərazisi işğal olunmuşdur ki, bu da üst-üstə Azərbaycan ərazisinin 20 faizini təşkil edir. Bir milyon azərbaycanlı oradan, öz yerlərindən zorla çıxarılmışdır və azərbaycanlıların yaşadıqları işğal olunmuş rayonlar dağıdılmış və qarət edilmişdir.

Belə bir şəraitdə biz məsələnin dincliklə nizama salınmasına tərəfdarıq və 1994-cü ilin mayında Ermənistanla atəşkəs haqqında saziş bağlamışıq. Bu sazişə indiyədək həm Ermənistan tərəfindən, həm də Azərbaycan tərəfindən əməl edilir. Son vaxtlar, ötən il ərzində Ermənistan Prezidenti ilə Azərbaycan Prezidenti arasında birbaşa danışıqlar, görüşlər, dialoq keçirilir. Ümidvaram ki, bu, münaqişənin dincliklə nizama salınması istiqamətində məsələni müəyyən dərəcədə irəlilədir. Biz münaqişənin dincliklə həllini istəyirik. Biz Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş ərazilərimizin azad edilməsini istəyirik. Biz sakinlərimizin öz yerlərinə qayıtmasını istəyirik – indi onlar çadırlarda yaşayırlar. Biz Ermənistanla həmişəlik tam sülh olmasını istəyirik.

**Nik Qovinq (sədrlik edən):** Əlbəttə, bütün regionun sabitliyi çox vacibdir. Xarici işlər naziri, Baş nazir, bu problemin nizama salınmasının mühümlüyü barədə fikrə bəlkə çox qısaca olaraq bir şey əlavə edəsiniz?

**Kamal Xərrazi:** Əlbəttə, bu nizamasalma region üçün çox vacibdir. Zənnimcə, 1regionda mövcud olan bütün vasitələrin köməyi ilə bu problemin siyasi yolla həllini tapmağa çalışmaq lazımdır. İran bu münaqişənin həlli üçün lap əvvəldən çox mühüm rol oynamışdır və onun siyasi həllinin tapılması üçün hər iki tərəflə əlaqə saxlamaqda davam edir.



**Qasımcomərd Tokayev:** Bu regionda olan mübahisənin həllinin əsas yolu bundan ibarətdir – münaqişədə olan hər iki tərəf Yer kürəsinin bu hissəsində sülh yaradılması üçün siyasi dialoqu, məsləhətləşmələri, habelə danışıqları davam etdirməlidir.

O ki qaldı münaqişənin təbiətinə, dediyim kimi, Qazaxıstan separatizmin hər hansı təzahürlərinə mənfi münasibət bəsləyir. Dünyanın özü artıq yaxşı-yaman bölünmüşdür və buna görə də indi onu yenidən bölmək üçün hər hansı cəhdlərə əl atmağa dəyməz.

***Sual:*** Demək istərdim ki, nəinki Prezident Şevardnadze, cənab Putin də burada deyildir. Cənab Putin Davosa gəlməkdən imtina edib, halbuki onun bu forumda iştirakı çox yerinə düşərdi. Ona görə də sualım ən əvvəl Heydər Əliyevə və Türkiyənin xarici işlər nazirinədir: Sizin ölkələrinizi çeçen separatçılarını dəstəkləməkdə günahlandırırlar. Sizcə, Çeçenistandakı münaqişə nə qədər tezliklə nizama salına bilər? Yaxın vaxtlarda bu münaqişədən çıxış yolu necə ola bilər? Əgər cənab prezidentlərdən və baş nazirlərdən kimsə cavab vermək istəsə, mən bu cavabı eşitməyimə şad olardım.

**Heydər Əliyev:** Azərbaycanın guya Çeçenistana müxtəlif yardımlar göstərdiyi barədə son aylar kütləvi informasiya vasitələrində Azərbaycana qarşı müntəzəm olaraq irəli sürülən ittihamların heç bir əsası yoxdur, onlar yalan və böhtandır. Mən axırıncı dəfə Moskvada olarkən və Rusiya Prezidentinin səlahiyyətlərini icra edən cənab Putinlə danışarkən bu mövzuda çox açıq söhbətimiz oldu. Cənab Putin etiraf etdi ki, bu, Rusiya dövlətinin mövqeyi deyildir, informasiya vasitələri isə azaddır və buna görə də istədiklərini yazırlar. Bununla yanaşı, o, mənə dedi ki, onlar Çeçenistan problemini tezliklə qurtaracaqlar. Sizin sualınızın cavabı belədir.

**İsmayıl Cəm:** Əlbəttə, ölkəmizdə biz çeçen separatizmini əsla dəstəkləmirik. İki müqəddəs prinsip var: bunlar bu və ya digər ölkənin ərazi toxunulmazlığı və milli birliyi prinsipləridir. Şübhəsiz ki, bizim ATƏT qarşısında öhdəliklərimiz, prinsiplərimiz var və biz onlara əməl etməliyik. Eyni zamanda hamı kimi, biz də görməliyik ki, insan hüquqları, günahsız adamların, uşaqların qırılması, məhv edilməsi milli məsələ, milli preroqativ deyildir, bu məsələlər hamımıza aiddir, bunlar bizim problemimizdir. Ona görə də tamamilə təbiidir ki, Türkiyə və digər ölkələr bu hüquqların pozulmasına görə çox böyük narahatlıq hissi keçirirlər. Bu, o demək deyildir ki, Türkiyə və digər ölkələr terrorizmi və ya separatizmi hansısa şəkildə dəstəkləməyə çalışırlar. Təşəkkür edirəm.

***Sual:*** İranın xarici işlər naziri, bir neçə il əvvəl sizi, iranlıları radikallar hesab edirdilər. Necə bilirsiniz, əgər əvvəlki siyasət dəyişməsəydi, indi siz bizə, Davosa gələrdinizmi?

**Kamal Xərrazi:** Siz müqayisə edə bilmirsiniz. İran İslam İnqilabının bütöv bir fəlsəfəsi, praktikası vardı, o, islam üçün tamamilə nadir haldır. Terrorizm tamamilə başqa məsələdir. Müsəlmanlar onu qəbul etmirlər. Müsəlman alimləri bəyan edirlər ki, terrorizm insan hüquqlarının pozulması deməkdir. İslam terrorizmi, çox böyük ziyan vuran, qadınların, uşaqların həlak olmasına, azlıqların əzab-əziyyət çəkməsinə gətirib çıxaran halları qəbul etmir. Bunu müqayisə etmək olmaz.

***Sual:*** Azərbaycan və Ermənistan burada, Davosda hər hansı ikitərəfli danışıqlar aparacaqlarmı?

**Heydər Əliyev:** Bəli, biz burada ikitərəfli danışıqlar aparmağı nəzərdə tuturuq, Ermənistan Prezidentinin və Azərbaycan Prezidentinin görüş vaxtı artıq müəyyən edilmişdir.

***Sual:*** Ola bilsin, biz neft kəmərlərindən kifayət qədər danışmadıq. Sədarətdə əyləşənlərin bu məsələ barəsində əlavə mülahizələri varmı? Çünki bu, regionun inkişafı üçün çox vacibdir.

**Kamal Xərrazi:** Belə qiymətləndirildi ki, Xəzər dənizi olduqca böyük neft və qaz mənbəyidir. Neft və qazın nəqli üçün biz, şübhəsiz, müxtəlif bazarlara gedən müxtəlif

marşrutlar barədə, yəni indi olanlara əlavə marşrutlar barədə düşünməliyik. Bəlkə də başqa bazarlara çıxmaq üçün digər neft kəmərləri çəkiləcəkdir. Nəzərə çarpdırmaq istərdim ki, indiki halda müxtəlif siyasi müzakirələr, mübahisələr iqtisadi inkişafın xeyrinə deyildir. Bütün bu proseslər siyasətsizləşdirilməlidir. Biz bu bölgədə sabitliyi, əməkdaşlığı, təhlükəsizliyi yalnız iqtisadi yollar və vasitələrlə yarada bilərik.

**Qasımcomərd Tokayev:** Razıyam ki, bölgədə sülh və təhlükəsizliyin olması neftə dair bütün layihələrin həyata keçirilməsi üçün çox mühümdür. Bununla yanaşı, deməliyəm ki, Xəzər dənizinin hüquqi statusu haqqında konsensusa nail olmaq vacibdir. Fikir müxtəlifliyinə baxmayaraq, bu konsensusa nail olmağa ümid var. Əlbəttə, biz bu yolda olan çətinlikləri azaltmırıq. Lakin bu, çox mürəkkəb problemdir. Buna baxmayaraq, o, həm ikitərəfli əsasda, həm də çoxtərəfli danışıqlar çərçivəsində həll edilə bilər.

Biz Xəzər dənizinin hüquqi statusu haqqında Moskva ilə imzaladığımız sazişi yüksək qiymətləndiririk. Bizim fikrimizcə, xüsusən Xəzərin dibi sahilyanı ölkələr arasında ayırıcı orta xətt əsasında bölünməlidir. Biz ikitərəfli əsasda danışıqların davam etdirilməsinin də tərəfdarıyıq.

**İsmayıl Cəm:** Bir halda ki, Qafqazı və ya Mərkəzi Asiyanı müzakirə edirik, mən vaxt amili, vaxt çərçivəsi məsələsinə qısaca toxunmaq istərdim. Biz Qafqazda anlaşılmazlıqdan, münaqişələrdən danışanda, deyirik ki, bu problemlər nə vaxtsa həll ediləcəkdir. Lakin bütün bu problemlər nə qədər uzun sürərsə, bir o qədər kəskin xarakter alacaqdır. Bu, iqtisadiyyata da aiddir. Biz deyirik ki, Qafqazda və Mərkəzi Asiyada olduqca böyük enerji ehtiyatları var və onları digər coğrafi regionlara çatdırmaq ümidindəyik. Lakin yenə də vaxt amili, vaxt məsələsi nəzərə alınmır. Misal üçün, əgər sabah İraqla beynəlxalq birlik arasında saziş əldə edilərsə, onda enerji ehtiyatlarının bütün balansı, coğrafiyası dəyişəcək, meydanda yeni oyunçular peyda olacaqdır. Ola bilsin ki, yeni, necə deyərlər, naməlum tənliklər meydana çıxacaqdır. Birdən Yaxın Şərq daha böyük həcmdə enerji ehtiyatları göndərilməsində fəallaşdı. Bu halda Qafqaz, Mərkəzi Asiya, bizim hamımız özümüzü tamam başqa vəziyyətdə görəcəyik. Buna görə də vaxt amilindən səmərəli istifadə edilməlidir.

***Sual:*** Zənnimcə, İrandan keçməsi barədə müzakirə edilən neft kəməri ağlabatan qərar olacaq, regionda vəziyyətin sabitləşməsinə kömək göstərəcəkdir. Lakin biz bu neft kəmərinin İrandan keçib-keçməyəcəyi barədə sualı indi sədarətdə oturanlara deyil, sabah cənab Klintona verməliyik. Bu, çox və olduqca mühüm məsələdir. Kimsə bu barədə bir şey demək istərdimi?

**Kamal Xərrazi:** Bəli, bu, çox maraqlı bir qeyddir ki, belə sualları Klintona vermək lazımdır. Neft kəmərləri məsələlərinin müzakirə prosesi siyasətsizləşdirilməlidir. Fövqəldövlətlər bu regionda həmin məsələyə qarışmamalıdır. Zənnimcə, məsələnin yalnız iqtisadi tərəfi daha siqlətli olmalıdır.

***Sual:*** Cənab Əliyev, Amerika hökumətinə sual barəsində Sizin nə kimi mülahizələriniz var?

**Heydər Əliyev:** Mənim Amerika hökumətinə suallarım və heç bir mülahizəm yoxdur, bütün mülahizələrimi artıq söyləmişəm. Siz məndən daha nə istəyirsiniz?

***Sual:*** İranın xarici işlər naziri dedi ki, kənar qüvvələr bu regiona müdaxilə etməməlidir. Bu, əlbəttə, yaxşıdır. Amma çoxları hesab edir ki, Əfqanıstanda sülhü yalnız ABŞ yarada bilər. Bəlkə buna görə də ABŞ, məsələn, Əfqanıstana qarşı embarqonu dəstəkləməlidir? Yeri gəlmişkən, burada bəlkə də müəyyən ziddiyyət var. Bir tərəfdən, amerikalıların regiona müdaxilə etməməsini, digər tərəfdən isə, embarqo barəsində kömək etməsini istəyirlər.

**Kamal Xərrazi:** Əfqanıstan problemi yalnız və yalnız bütün nüfuzlu dövlətlərin əməkdaşlığı şəraitində həll edilə bilər. Siz bilirsiniz ki, bizdə "altı üstəgəl bir" formulu var və buraya ABŞ da daxildir. Bəli, bizim belə bir formulumuz var. Lakin bu o demək deyildir ki, bu problemi yalnız ABŞ həll edə bilər. Bu münaqişənin nizama salınmasında "altı üstəgəl bir" formulunun bütün üzvləri iştirak etməlidirlər.



**Nik Qovinq:** Mənə elə gəlir ki, indi biz işimizi başa çatdırmalıyıq. Biz çox mühüm məsələləri müzakirə etdik, diplomatiya məsələlərini nəzərə çarpdırdıq, regionda birliyi və heç kimin böyük oyuna qayıtmaq istəmədiyini dəstəklədik. "Sülh neft kəməri" deyilən məsələyə gəldikdə isə, zənnimcə, burada vacib olan budur ki, tərəqqiyə ümid bəslənildiyi, Böyük İpək yolunun keçdiyi bütün regionda sabitlik naminə insanların qarşılıqlı güzəştə getməyə hazır olduğu bildirildi. Düşünürəm ki, konfransımız bu məsələyə öz töhfəsini verəcəkdir.

Bu gün bizə qoşulduğunuza görə sizə təşəkkür edirəm.

## *Konqres mərkəzində*

Konqres mərkəzində

Azərbaycan Prezidenti Heydər Əliyev yanvarın 29-da Davos Dünya İqtisadi Forumunun keçirildiyi Konqres mərkəzinə gəldi. Forumun sessiyasında bütün nümayəndə heyətlərinin rəhbərləri iştirak edirdilər. Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton[7] sessiyada geniş nitq söylədi.

Davos iqtisadi forumunu yüksək dəyərləndirən ABŞ Prezidenti bu səfərdə onu Birləşmiş Ştatların ticarət, xəzinədarlıq, enerji, kommersiya nazirlərinin müşayiət etdiyini bildirdi.

Forumda dünyanın bir sıra ölkələrinin dövlət və hökumət başçılarının, görkəmli siyasi xadimlərin, elm və mədəniyyət xadimlərinin iştirakından məmnun qaldığını söyləyən natiq qloballaşma probleminə xüsusi diqqət yetirilməsinin vacib olduğunu nəzərə çarpdırdı.

Onun prezidentliyi dövründə ABŞ-da 20 milyon yeni iş yeri açıldığını vurğulayan cənab Klinton təəssüflə bildirdi ki, müsbət yönümdə əsaslı dəyişikliklərə baxmayaraq indi ABŞ Konqresində 7 il əvvəlkindən daha çox proteksionizm meyli hökm sürməkdədir.

Amerika cəmiyyətində idxal proseslərinə mənfi münasibət formalaşması haqqında öz fikirlərini bildirən natiq ABŞ-a yeni məhsullar, xidmətlər gətirilməsi işinə idxal prosesinin xüsusi təkan verdiyini bəyan etdi.

O, daha sonra dedi: Mənə elə gəlir ki, forumun "Yeni başlanğıclar: müsbət dəyişikliklərə nail olmaq" mövzusu çox dəyərli bir mövzudur. Sizdən xahiş etmək istəyirəm ki, indi, bu qloballaşma erasında yeni başlanğıcların nə kimi dəyişikliklər gətirə biləcəyi haqqında düşünəsiniz. Biz bilməliyik ki, nə kimi imkanlar, çətinliklər var, vəzifəmiz nədən ibarətdir, yeni başlanğıclar hansı müsbət dəyişikliklər gətirəcəkdir. Yəqin ki, ən çətin sual bu olacaqdır- həmin dəyişiklikləri həyata keçirmək üçün bizdə xüsusi təsisatlar və mexanizmlər varmı?

Prezident Klinton daha sonra dedi ki, bizim hamımıza məlumdur - qlobal iqtisadiyyat yüz il bundan əvvəl, demək olar, elə indiki kimi inteqrasiya edilmişdi. lakin indi aydın olduğuna görə, Birinci Dünya müharibəsindən sonra Birləşmiş Ştatların və Avropa ölkələrinin liderləri çox səhv və qeyri-uzaqgörən siyasət yeritdilər, partnyorluq əvəzinə proteksionizm və təcridolma yolunu seçdilər. Nəticədə onilliklər boyu qloballaşma əks istiqamətdə inkişaf etməyə başladı. Bu isə dağıdıcı nəticə verdi.

İkinci Dünya müharibəsindən sonra liderlərə ikinci imkan verildi. Onlar bu dəfə iqtisadi və siyasi əməkdaşlıq yolunu seçdilər və 50 ildir ki, bu yolla gedirlər. Beləliklə, bu gün, yeni əsrin başlanğıcında yalnız Avropa və Birləşmiş Ştatlar deyil, bütün dünya, Asiya ölkələri də yolayrıcına gəlib çatmışlar. Qloballaşma bizim həyatımızda, işimizdə və bir-birimizlə əlaqələrdə əsl inqilab yaratmışdır. Qloballaşma bağlı qapıları açır, millətlər, xalqlar, fərdlər müxtəlif iqtisadiyyatlar və mədəniyyətlər arasında yeni şəbəkələr yaradır.

Prezident Bill Klinton bəşəriyyəti düşündürən qlobal problemlərin həlli istiqamətində dünya ölkələrinin səylərinin birləşdirilməsinin vacib olduğunu xüsusi vurğuladı. Onun fikrincə, bəşəri problemlərin həlli siyasi, dini və coğrafi mənsubiyyətindən asılı olmayaraq bütün insanların, dövlətlərin, beynəlxalq və regional





təşkilatların ümdə vəzifəsi olmalıdır. Bu mənada dünyanın aparıcı dövlətlərinin üzərinə xüsusi məsuliyyət düşür.

Son illər planetimizin ekoloji durumunun kəskin surətdə dəyişməsindən narahatlıqla bəhs edən natiq bu sahəyə həm insanların özünün, həm də ayrı-ayrı ölkələrin, istehsal birliklərinin xüsusi diqqət yetirməsinin zəruri olduğunu nəzərə çarpdırdı.

ABŞ Prezidenti dünya ölkələrində həyat səviyyəsinin yüksəldilməsini, iqtisadiyyatın, elmin, təhsilin, səhiyyənin inkişafı üçün görülən işlərin daha da gücləndirilməsini XXI əsrin həlli vacib olan problemlərindən biri kimi səciyyələndirdi. O dedi ki, Birləşmiş Ştatlar zəif inkişaf etmiş ölkələrə, eləcə də gənc müstəqil dövlətlərə müxtəlif layihələrin həyata keçirilməsində hərtərəfli yardım göstərməlidir.

Cənab Bill Klinton daha sonra dedi:

– Bu gün məlumdur ki, elmi-texnoloji üstünlüklərə görə biz bir-birimizlə biznes əlaqələrinə girməyə, bir-birimizdən öyrənməyə daha az vaxt sərf edirik. Açıqlıq, mobillik, yeni rabitə şəbəkələri və texnologiyalar qloballaşmanı asanlaşdırdığı kimi, bir çox problemləri də üzə çıxarır.

Terrorizm, narkobiznes və mütəşəkkil cinayətkarlıq, müxtəlif silah növləri sərhədlərin açıqlığından istifadə edərək daha çox problemlər yarada bilər. Bu problemlərin hamısı yeni əsrdə bizim qarşımızda yeni təhlükəsizlik vəzifələrini qoyur. Bu qloballaşma erasında xəstəliklərin yayılması bəzi cəmiyyətlərdə kök salmış etnik, irqi,

tayfa, dini münaqişələrin yayılmasını daha da artıra bilər. Gündə bir dollardan az pul qazanan milyardlarla insanın yoxsulluğu da dünyanın qloballaşmasının bir hissəsidir.

Bunu həm Detroyta, həm Davosa, həm Dəqqəyə, həm də Dakara aid etmək olar ki, açıq bazarlar yeni iş yerləri yaradır, bu vasitə ilə gəlirlər artır. Açıq bazarlar həm də yenilik gətirir və yeni texnologiyaları yayır. Məsələn, mən 7 il əvvəl prezident seçilərkən İnternetdə Vueldvayd Veb bölümündə cəmi 50 səhifə var idi. 7 il ərzində isə səhifələrin sayı 50 milyona çatmışdır.

Natiq daha sonra dedi:

- Əlbəttə, inkişaf etməkdə olan ölkələr üçün ticarət xüsusilə vacibdir. 1970-ci ildən 1990-cı illərin əvvəllərinədək ölkələrinin qapısını xarici ticarət üçün açmış dövlətlər əvvəlkindən iki dəfə artıq inkişaf etmişlər. Daha açıq ölkələr isə 6 dəfə artıma nail olmuşlar.

Sadəcə, 50 il əvvəlki Yaponiyanı, Cənub-Şərqi Asiyanı xatırlayın. Onlar kasıb, əsas etibarilə kənd təsərrüfatı ilə məşğul olan ölkələr idi. Bu gün onlar ticarətin həcminə görə qlobal liderlərə çevrilmişlər. Cənubi Koreyaya, Meksikaya və ya Tailanda fikir verin. Lap bu yaxınlaradək həmin ölkələrdə maliyyə böhranı olmasına baxmayaraq, yalnız açıq ticarətin hesabına onların milli gəliri 70-ci illərlə müqayisədə iki dəfə artmışdır. Həmin ölkələr eyni zamanda savad, təhsil, dünyagörüşü sahəsində qeyri-adi nailiyyətlər qazanmışlar.

Biz ümid edə bilmərik ki, təkcə ticarət bir sıra xalqları yoxsulluqdan çıxaracaqdır. Yox, belə olmayacaq. Ölkələrin inkişaf etməsi üçün ticarət vacibdir, lakin kifayət deyildir. Hərtərəfli inkişafa nail olmaq üçün insan amili, təhsil, sağlamlıq, texnologiya, infrastruktur və sərmayələr lazımdır.

Biz inkişafda olan ölkələrdə hər il milyonlarla insanın öldüyünü, milyonlarla dolların itirildiyini görürük. Bu dollarlardan QİCS, malyariya, sətəlcəm kimi xəstəliklərin qarşısını almaq üçün istifadə oluna bilər. Bu xəstəliklərə qarşı vaksinlər tapa bilərsinizsə, biz onların dəyərini ödəməyə kömək edərik. Ümid edirəm ki, Dünya Bankı, digər ölkələr və bütün dünya ictimaiyyəti bu sahədə bizimlə əlbir işləməyə hazırdır. Əgər biz vaksinləri ehtiyacı olan adamlara çatdıra bilsək, milyonlarla insanın həyatını xilas etmiş olarıq. Bu isə cəmiyyətdə güclü məhsuldar qüvvənin qorunması, mövcudluğu deməkdir.

İnkişaf etmiş ölkələrin liderlərinin üzərinə düşən vəzifələri şərh edən natiq bildirdi ki, onlar yoxsulluq və zənginlik arasındakı boşluğun götürülməsi üçün hökumət təsisatlarının açıq, ədalətli, səmərəli işini təmin etməlidirlər ki, bu ölkələrə xarici investisiyalar gəlsin, orada korrupsiyanın kökü kəsilsin, onlar öz sosial problemlərini həll edə bilsinlər. Əgər həmin ölkələr cəmiyyətin inkişafı üçün lazımi addımlar atmırlarsa, onda varlı ölkələrdən göndərilən yardımın da həddi olmalıdır.

İnkişafda olan ölkələrin artıq inkişaf etmiş dövlətlərdə işçilərin təhlükəsizliyi və ətraf mühitin qorunması sahəsində buraxılmış səhvləri təkrar etmədən irəliləyişə nail olmaq imkanları vardır. Yeni iqtisadiyyat, elm və texnologiya elə bir səviyyəyə çatmışdır ki, onlar bu səhvləri təkrar etməyə bilərlər. Bizim hamımız bütün bunlarda maraqlıyıq. Xüsusilə ətraf mühit, qlobal istilik problemləri bizi narahat edir.

Demokratiyanın inkişafına informasiya mübadiləsinin müsbət təsirindən söhbət açan cənab Klinton dedi ki, qloballaşma insanlara hər yerdə yeni informasiya gətirir. Çinə səfərim zamanı mənim üçün ən yaddaqalan hadisə "İnternet" kafesinə getməyim oldu. İnsanlar çox öyrəndikcə onların fikirləri zənginləşir, demokratiya da sürətlə inkişaf edir. Yadınızda saxlayın, indi dünyanın yarıdan çoxunda insanlar özlərinin seçdiyi rəhbərlərin hakimiyyəti altında yaşayırlar. Belə şəraitdə insanlar inanmağa başlayırlar ki, onlar öz talelərini özləri həll edə bilirlər.






Birləşmiş Ştatlarda təxminən yüz il bundan əvvəl iqtisadiyyat əsas etibarilə fermalardan, fabriklərdən keçdi. Çoxları kənd yerlərini tərk edib şəhərlərə gəldilər. Sizin ölkələrdən də çoxları Birləşmiş Ştatların sahillərinə üz tutdular. Nyu-Yorkda, digər şəhərlərdə ağlasığmaz sıxlıq yarandı. İnsanlar bütün günü işləyib çirkli hava ilə nəfəs alırdılar. O zaman çox böyük qeyri-bərabərlik var idi. Nəyə görə? Ona görə ki, bu prosesin əvvəlində bəziləri özlərinə yer tapmışdılar, bəziləri isə yox.

Sonra isə siyasi və sosial təşkilatlar yeni təsisatlar yaradıb onları inkişaf etdirdilər və bunun vasitəsilə qeyri-bərabərliyin aradan qaldırılmasına çalışdılar. Nəticədə iqtisadiyyatın özü kifayət qədər yetkin oldu, gəlirlər daha bərabər və daha geniş səpkidə paylanmağa başlandı və qeyri-bərabərlik aradan götürüldü.

ABŞ Prezidentinin dərin məzmunlu nitqi böyük diqqətlə dinlənildi və maraqla qarşılandı. Cənab Bill Klinton daha sonra suallara ətraflı cavab verdi.

## Qəbullar, ziyafətlər

Qəbullar, ziyafətlər

Yanvarın 29-da günortadan sonra Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton Azərbaycan və Amerika prezidentlərinin yaşadığı məşhur "Belveder" mehmanxanasında Davos iqtisadi forumunda iştirak edən ölkələrin dövlət və hökumət başçılarının, nümayəndə heyətləri rəhbərlərinin, dünyanın aparıcı şirkətlərinin prezidentlərinin və görkəmli ictimai-siyasi xadimlərinin şərəfinə rəsmi qəbul keçirdi.

Qəbul zamanı Prezident Bill Klinton və Prezident Heydər Əliyev arasında səmimi söhbət oldu. Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ Prezidenti Bill Klintonu forumda çox maraqlı və dərin məzmunlu çıxışı münasibətilə təbrik etdi.

ABŞ-ın Dövlət katibi xanım Madlen Olbraytın və ATƏT-in Minsk qrupunun ABŞ tərəfindən olan həmsədri Kerri Kavanonun da iştirak etdiyi söhbətdə bir çox məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Həmin gün axşam Davos Dünya İqtisadi Forumunda iştirak edən dövlət və hökumət başçılarının şərəfinə "Sanstar park" mehmanxanasında rəsmi ziyafət verildi. Ziyafətdə Azərbaycan Prezidenti Heydər Əliyev də iştirak edirdi.



# Görüşlər, mükalimələr, müzakirələr...

## *Azərbaycan Prezidenti Heydər Əliyevin İsveçrə Konfederasiyasının Prezidenti Adolf Oqi ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin İsveçrə Konfederasiyasının Prezidenti Adolf Oqi ilə görüşü



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 28-də Davosda İsveçrə Konfederasiyasının Prezidenti Adolf Oqi[8] ilə görüşdü.

Dövlətimizin başçısını mehribanlıqla salamlayan və onunla görüşdən məmnun qaldığını bildirən cənab Oqi Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə gəldiyinə görə Prezident Heydər Əliyevə minnətdarlıq etdi.

Qonaqpərvərliyə görə cənab Oqiyə təşəkkür edən respublikamızın rəhbəri əmin olduğunu bildirdi ki, Davos iqtisadi forumu iştirakçı ölkələr, o cümlədən Azərbaycan ilə İsveçrə arasında əməkdaşlığın daha da möhkəmlənməsinə kömək göstərəcəkdir.

Müstəqil Azərbaycan Respublikasında Prezident Heydər Əliyevin uzaqgörən rəhbərliyi ilə həyata keçirilən siyasi və iqtisadi islahatları yüksək dəyərləndirən cənab Oqi ölkəmizdə gedən proseslərə böyük maraq göstərdiklərini nəzərə çarpdırdı.

Hüquqi, demokratik, dünyəvi dövlət quran müstəqil Azərbaycan Respublikasının çətinliklərindən bəhs edən dövlətimizin başçısı ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən ətraflı söhbət açdı. 12 ildən bəri davam edən bu münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin, o cümlədən Dağlıq Qarabağın və onun ətrafında olan rayonların Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini xatırladan respublikamızın rəhbəri dedi ki, bu münaqişə zamanı bir milyondan çox vətəndaşımız yerindən-yurdundan zorla qovulmuş, 7 ildən bəri çadırlarda ağır şəraitdə yaşayırlar.

Ermənistan-Azərbaycan müharibəsində 1994-cü ildən atəşkəs rejiminin davam etdiyini bildirən dövlətimizin başçısı bu münaqişənin sülh yolu ilə həlli üçün yaradılmış ATƏT-in Minsk qrupunun fəaliyyətindən bəhs etdi.

ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının İsveçrənin sədrliyi ilə 1996-cı ildə Lissabonda keçirilmiş zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün qəbul olunmuş əsas prinsipləri geniş şərh edən Prezident Heydər Əliyev ATƏT-in o vaxtkı icraçı sədri, İsveçrə nümayəndəsi Flavio Kottinin verdiyi bəyanatı yüksək dəyərləndirdi. Dövlətimizin başçısı dedi ki, həmin bəyanat Lissabon sammitində iştirak edən 53 ölkənin dövlət və hökumət başçıları tərəfindən qəbul olundu, təkcə Ermənistan bu sənədi imzalamadı.



Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Lissabon Zirvə görüşündə bu tarixi əhəmiyyətli sənədin qəbul olunmasına görə İsveçrə hökumətinə və xalqına öz dərin minnətdarlığını bildirdi.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqlardan, ATƏT-in İstanbul sammitində də bu barədə müəyyən müzakirələr getdiyindən söhbət açan Prezident Heydər Əliyev dedi ki, ölkəmiz bu təcavüz nəticəsində çox ağır problemlərlə üzləşsə də biz münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılmasını istəyirik.

Görüşdə ölkələrimiz arasında bir çox sahələrdə əlaqələrin genişləndirilməsi imkanlarından danışıldı, İsveçrənin Ey-Bi-Bi şirkətinin respublikamızda gördüyü işlərdən razılıqla bəhs olundu.

İsveçrə şirkətlərinin Dağlıq Qarabağda saat istehsal etmək, zərgərlik işləri görmək, bank təsis etmək cəhdlərinin yolverilməz olduğunu qətiyyətlə bildirən Prezident Heydər Əliyev Azərbaycan Xarici İşlər Nazirliyinin bu barədə İsveçrə Xarici İşlər Nazirliyinə nota göndərdiyini də vurğuladı.

Öz ölkəsinin şirkətlərinin bu hərəkətindən çox təəssüfləndiyini nəzərə çarpdıran cənab Oqi İsveçrə dövlətinin bu barədə lazımi tədbirlər görəcəyini söylədi.

Mehribanlıq və səmimilik şəraitində keçən görüşdə ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton ilə görüşü*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton ilə görüşü

İsveçrənin Davos şəhərində Dünya İqtisadi Forumunda iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klinton ilə görüşdü.

Azərbaycan Prezidentini səmimi və dostcasına salamlayan cənab Bill Klinton dövlətimizin başçısı Heydər Əliyev ilə yenidən görüşməsindən çox məmnun olduğunu bildirdi. Keçən ilin noyabr ayında İstanbulda Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə tarixi sazişin imzalanması mərasimində iştirakını məmnuniyyətlə xatırlayan ABŞ Prezidenti Xəzər hövzəsi ölkələrinin zəngin enerji ehtiyatlarının dünyanın aparıcı neft şirkətləri ilə birgə işlənilməsinin regionun bütün dövlətlərinin inkişafına xidmət edəcəyinə, Cənubi Qafqaz və Mərkəzi Asiya dövlətlərinin suverenliyi və müstəqilliyinin daha da möhkəmləndirilməsinə töhfə verəcəyinə əmin olduğunu nəzərə çarpdırdı.



Prezident Klinton Bakı-Ceyhan və Transxəzər boru kəmərləri kimi nəhəng layihələrin həyata keçirilməsində Azərbaycanın aparıcı rol oynadığını xüsusi vurğuladı. ABŞ Prezidenti ötən illər ərzində Prezident Əliyev ilə onun arasında olan sıx əməkdaşlığın yaxın dostluğa çevrilməsindən çox məmnun qaldığını söylədi.

Cənab Klinton ölkələrimiz arasında enerji sektorunda Azərbaycan Prezidenti Heydər Əliyevin memarı olduğu "Əsrin müqaviləsi"ndən başlanan çox uğurlu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında yaranmış strateji əməkdaşlığı yüksək qiymətləndirən cənab Klinton əmin olduğunu söylədi ki, ölkələrimizin bütün sahələrdəki qarşılıqlı surətdə faydalı əlaqələri bundan sonra daha da genişlənəcəkdir.

Prezident Klinton Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün Prezident Heydər Əliyev ilə Prezident Robert Koçaryan arasında aparılan birbaşa danışıqların Amerika Birləşmiş Ştatları tərəfindən dəstəkləndiyini xüsusilə vurğuladı. O, münaqişənin tezliklə aradan qaldırılması üçün şəxsi səylərini artırmağa və Minsk qrupunda Amerika Birləşmiş Ştatlarının fəaliyyətini gücləndirməyə hazır olduğunu bəyan etdi.

Cənab Klinton əmin olduğunu bildirdi ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasına, region dövlətlərində demokratiyanın inkişaf etməsinə və onların arasında iqtisadi əməkdaşlığın genişlənməsinə kömək edəcək və bu regionda yaşayan xalqların maddi rifah halının yüksəlməsinə öz töhfəsini verəcəkdir.

Azərbaycan Prezidenti Heydər Əliyev cənab Bill Klinton ilə növbəti dəfə görüşməyindən məmnun olduğunu bildirdi. Dövlətimizin başçısı Heydər Əliyev Prezident Bill Klinton ilə şəxsi dostluq münasibətlərini yüksək qiymətləndirdiyini qeyd etdi.

Respublikamızın rəhbəri ötən ilin noyabr ayında ATƏT-in İstanbul Zirvə görüşü çərçivəsində məşhur "Çırağan sarayı"nda Bakı-Ceyhan əsas ixrac neft boru kəmərinin çəkilməsi barədə sazişin imzalanmasını tarixi hadisə kimi dəyərləndirdi və bu mərasimdə Amerika Birləşmiş Ştatları Prezidentinin iştirak etməsinin, sazişə imza atmasının həmin sənədin həyata keçirilməsi üçün çox əhəmiyyətli olduğunu vurğuladı.

Prezident Heydər Əliyev Azərbaycanın və bütün regionun inkişafına təkan verən bu nəhəng layihələrin həyata keçirilməsinə verdiyi dəstəyə görə Prezident Bill Klintona minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Azərbaycanın zəngin enerji ehtiyatlarının Amerika Birləşmiş Ştatlarının və Qərbin aparıcı neft şirkətləri ilə birgə işlənilməsi sahəsində ölkəmizin əməkdaşlığının bundan sonra da davam edəcəyini nəzərə çarpdırdı.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün Prezident Koçaryanla apardığı danışıqlar barədə Amerika Birləşmiş Ştatlarının Dövlət katibi xanım Olbrayt ilə görüşündə ətraflı müzakirələr keçirdiyini bildirən Azərbaycan



Prezidenti sülh prosesinin davam etməsini daim diqqətində saxladığına və danışıqların uğurla başa çatması üçün göstərdiyi şəxsi səylərə və dəstəyə görə Prezident Klintona dərin təşəkkürünü yetirdi.

Prezident Heydər Əliyev əmin olduğunu bildirdi ki, Azərbaycan ilə Amerika arasındakı strateji tərəfdaşlıq münasibətləri bundan sonra daha da güclənəcəkdir. Ölkələrimiz arasında çoxtərəfli iqtisadi əlaqələrin bütün sahələrdə genişlənməsi üçün bu yaxınlarda Amerika Birləşmiş Ştatları və Azərbaycan hökumətləri arasında birgə işçi qrupunun yaradılması barədə əməkdaşlıq memorandumunun imzalanmasının mühüm əhəmiyyət daşıdığını vurğulayan respublikamızın rəhbəri Heydər Əliyev ABŞ-ın işgüzar dairələrinin Azərbaycanda qarşılıqlı surətdə faydalı iş görməsi və sərmayə qoyması üçün bundan sonra da hər cür şərait yaradılacağını bildirdi.

Görüş çox mehribanlıq və dostluq şəraitində keçdi.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin İordaniya Kralı Əlahəzrət Abdullah ilə görüşü*

*Dövlətimizin başçısı Heydər Əliyevin İordaniya Kralı Əlahəzrət Abdullah ilə görüşü*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 30-da Davosda İordaniya Kralı Abdullah bin Hüseyn bin Talal[9] ilə görüşdü.

Dövlətimizin başçısını səmimiyyətlə qarşılayan Kral Abdullah Prezident Heydər Əliyev ilə görüşdən şərəf duyduğunu bildirdi.

Əziz dostu İlham Əliyevə onun salamlarını çatdırmağı xahiş edən Kral Abdullah dedi:

– Mən əziz dostum İlham Əliyevlə Bakıda görüşdükdən sonra ümidvar idim ki, o, bizim ölkəmizi ziyarət edəcək, mənimlə görüşəcəkdir. Cənab Prezident, mən bu fürsətdən bir daha istifadə edib həm Sizi, həm də oğlunuz İlham Əliyevi ölkəmizə səfərə dəvət edirəm.

Səmimi sözlərə görə minnətdarlığını bildirən, ARDNŞ-nin birinci vitse-prezidenti, millət vəkili İlham Əliyevin salamlarını və xoş arzularını İordaniya Kralına çatdıran respublikamızın rəhbəri Heydər Əliyev dedi:

– Mən ümid edirəm ki, İordaniyaya səfərə birinci növbədə İlham Əliyev, sonra isə mən gələrəm.

Dəvəti qəbul etdiyinə görə dövlətimizin başçısına təşəkkür edən Kral Abdullah dedi:

– Cənab Prezident, mən Sizin bu sözlərinizi İordaniyaya rəsmi səfərə gəlməyiniz barədə razılıq kimi qəbul edirəm. Vətənə qayıtdıqdan sonra Sizə dəvəti rəsmi qaydada, yazılı surətdə göndərəcəyəm.

Dövlətimizin başçısı Heydər Əliyev də İordaniya Kralını Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Müstəqil Azərbaycan Respublikasında hüquqi, demokratik, dünyəvi dövlət qurucu-



luğu sahəsində əldə edilmiş uğurlardan söhbət açan Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin ölkəmiz üçün ən ağrılı problem olduğunu nəzərə çarpdırdı.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin işğal edildiyini, bir milyondan çox vətəndaşımızın yerindən-yurdundan zorla qovularaq çadırlarda ağır şəraitdə yaşadığını vurğulayan dövlətimizin başçısı bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların gedişi barədə ətraflı məlumat verdi.

Azərbaycanın haqq işinin İordaniya Krallığı tərəfindən müdafiə edildiyini bildirən Kral Abdullah öz ölkəsinin respublikamızla bütün sahələrdə əlaqələrin genişləndirilməsinə maraq göstərdiyini nəzərə çarpdırdı.

Söhbət zamanı Azərbaycan ilə İordaniya arasında əlaqələrin perspektivləri, beynəlxalq təşkilatlarda əməkdaşlığın daha da möhkəmləndirilməsi, regionda vəziyyət və bir sıra digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.



## *Azərbaycan Prezidenti Heydər Əliyevin Ukrayna Prezidenti Leonid Kuçma ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin Ukrayna Prezidenti Leonid Kuçma ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda Ukrayna Prezidenti Leonid Kuçma[10] ilə görüşdü.

Cənab Kuçma dövlətimizin başçısını mehribanlıqla salamladı, Prezident Heydər Əliyevlə hər bir görüşündən çox böyük məmnunluq duyduğunu söylədi, Azərbaycanla bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə Ukraynanın xüsusi maraq göstərdiyini vurğuladı.

Səmimi sözlərə görə təşəkkürünü bildirən respublikamızın rəhbəri ölkələrimiz arasında getdikcə möhkəmlənən iqtisadi əməkdaşlığa və strateji tərəfdaşlığa Azərbaycanın böyük əhəmiyyət verdiyini nəzərə çarpdırdı.

Prezident Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti, ardıcıl və məqsədyönlü fəaliyyəti sayəsində ötən ilin noyabrında İstanbulda ATƏT-in Zirvə görüşü zamanı imzalanmış tarixi sənədləri – Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri və Transxəzər



qaz kəməri ilə bağlı sazişləri bir daha yüksək dəyərləndirən Leonid Kuçma Xəzərin zəngin enerji ehtiyatlarının nəqli və emalı sahəsində Azərbaycan-Ukrayna əməkdaşlığının daha da möhkəmləndirilməsinin zəruri olduğunu bildirdi.

Cənab Kuçmanın söylədiyi fikirlərdən məmnun qaldığını qeyd edən dövlətimizin başçısı region dövlətlərinin müstəqilliyi və suverenliyinin möhkəmləndirilməsində, iqtisadi tərəqqisində bu layihələrin həyata keçirilməsinin böyük rol oynayacağına əmin olduğunu vurğuladı.

Söhbət zamanı ikitərəfli əlaqələrin daha da sıxlaşdırılması, regionda vəziyyət və bir sıra digər məsələlər barədə fikir mübadiləsi aparıldı.

Görüş ənənəvi dostluq və səmimilik şəraitində keçdi.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin Mozambik Prezidenti Joakim Çissano ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin Mozambik Prezidenti Joakim Çissano ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda Mozambik Respublikasının Prezidenti Joakim Çissano[11] ilə görüşdü.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan cənab Çissano Prezident Heydər Əliyev ilə yenidən görüşməyindən çox şad olduğunu bildirdi.

Cənab Çissano respublikamızın rəhbəri Heydər Əliyevin Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışarkən Sovet İttifaqının ali nümayəndə heyətinin başçısı kimi Mozambikə səfərini çox gözəl xatırladığını nəzərə çarpdırdı.

Mozambik xalqının çətin günlərində Heydər Əliyevin bu xalqa göstərdiyi köməyi heç vaxt unutmayacağını və bunu həmişə minnətdarlıq hissi ilə xatırladığını söyləyən Prezident Çissano Azərbaycan ilə bütün sahələrdə əlaqələrin genişləndirilməsinə Mozambikin böyük əhəmiyyət verdiyini vurğuladı.

Sovet İttifaqı nümayəndə heyətinin başçısı kimi Mozambikə səfərini və o vaxt xarici işlər naziri olan cənab Çissano ilə görüşlərini məmnuniyyətlə xatırlayan Prezident Heydər Əliyev Azərbaycan ilə Mozambik arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinin vacib olduğunu bildirdi.

Respublikamızın Prezidenti Heydər Əliyev Mozambikdəki ictimai-siyasi vəziyyətlə maraqlandı və vaxtilə bu ölkəyə etdiyi səfər, oradakı siyasi proseslər barədə öz fikirlərini söylədi.

Prezident Heydər Əliyevin yaddaşına, Mozambikin siyasətçiləri, ölkənin həyatında baş vermiş siyasi proseslər barədə belə dərin biliyə malik olduğuna heyran qaldığını bildirən cənab Çissano uzun müddət davam etmiş vətəndaş müharibəsindən sonra öz ölkəsində əldə olunmuş nailiyyətlər haqqında dövlətimizin başçısına ətraflı məlumat



verdi. O, Azərbaycan Prezidenti Heydər Əliyevi Mozambikdə görmək arzusunu ifadə etdi.

Dövlətimizin başçısı beynəlxalq təşkilatlarda Azərbaycanın haqq işinə verdiyi dəstəyə görə Mozambik Prezidentinə təşəkkürünü bildirdi.

Prezident Heydər Əliyev Prezident Çissanonu Azərbaycana rəsmi səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Səmimilik və mehribanlıq şəraitində keçən görüşdə ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşü

Dünya İqtisadi Forumunda iştirak edən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 28-də Davosdakı Dağ Uçqunluğu üzrə Federal İnstitutda Ermənistan Prezidenti Robert Koçaryan ilə görüşdü.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məsələləri müzakirə edildi.



Prezidentlər ATƏT-in və onun Minsk qrupu həmsədrlərinin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması sahəsində fəaliyyətini nəzərdən keçirdilər və bu fəaliyyətin bundan sonra da davam etdirilməsinin vacibliyini vurğuladılar.

Tam sülh əldə edilənədək atəşkəs rejiminin saxlanılmasının və görüşlərin bundan sonra da keçirilməsinin zəruri olduğunu nəzərə çarpdıran dövlət başçıları bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün hər iki tərəfin milli mənafelər naminə konstruktiv mövqe tutmasına və qarşılıqlı kompromislərə getməsinə ehtiyac duyulduğunu bildirdilər.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin Baş naziri Bülənd Ecevit ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin Baş naziri Bülənd Ecevit ilə görüşü



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda Türkiyənin Baş naziri Bülənd Ecevit[12] ilə görüşdü.

Respublikamızın rəhbərini böyük səmimiyyət və mehribanlıqla salamlayan cənab Ecevit dost və qardaş ölkənin Prezidenti Heydər Əliyevlə bu görüşündən son dərəcə məmnun qaldığını nəzərə çarpdırdı.

Azərbaycan ilə Türkiyə arasında dostluq və əməkdaşlıq münasibətlərinin gündən-günə genişlənməsindən, inkişaf etməsindən razılıqla söhbət açan dövlətimizin başçısı Heydər Əliyev Davos Dünya İqtisadi Forumunun iştirakçı ölkələrin qarşılıqlı surətdə faydalı əlaqələrinin möhkəmləndirilməsində mühüm rol oynayacağına əmin olduğunu bildirdi.

Respublikamızın rəhbəri Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların gedişindən ətraflı bəhs etdi.

Cənab Ecevit bu münaqişənin aradan qaldırılması üçün Azərbaycanın haqq işini Türkiyənin həmişə müdafiə edəcəyini bir daha vurğuladı.

Prezident Heydər Əliyev və Baş nazir Bülənd Ecevit Xəzərin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılması üçün nəzərdə tutulan Bakı-Ceyhan əsas ixrac boru kəmərinin və Transxəzər qaz kəmərinin inşasına dair ötən ilin noyabrında İstanbulda



imzalanmış sənədlərdən məmnunluqla söhbət açaraq, bu layihələrin həyata keçirilməsinin nəinki region dövlətlərinin, həm də Avropa və dünya ölkələrinin iqtisadi inkişafında böyük rol oynayacağını bildirdilər və onların gerçəkləşdirilməsi üçün görülən işləri müzakirə etdilər.

Söhbət zamanı Davos iqtisadi forumunda müzakirə edilən məsələlər, regionda vəziyyət barədə ətraflı fikir mübadiləsi aparıldı.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin Norveçin Baş naziri Kyel Maqne Bondevik ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin Norveçin Baş naziri Kiyel Maqne Bondevik ilə görüşü



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda Norveçin Baş naziri Kiyel Maqne Bondevik[13] ilə görüşdü.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan, onunla yenidən görüşməyindən şərəf duyduğunu bildirən cənab Bondevik Bakıya səfərini və Prezident Heydər Əliyevlə apardığı danışıqları həmişə məmnunluqla xatırladığını nəzərə çarpdırdı.

Ötən ilin noyabrında İstanbulun məşhur "Çırağan sarayı"nda Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə sazişin imzalanması mərasimində iştirak etdiyini və bu sənədə imza atdığını söyləyən cənab Bondevik bu tarixi əhəmiyyətli hadisənin Norveçdə də böyük rəğbət doğurduğunu vurğuladı.

"Statoyl" şirkətinin Bakı-Ceyhan əsas ixrac boru kəməri üzrə yaradılmış konsorsiumun ən fəal üzvlərindən biri olduğunu nəzərə çarpdıran cənab Bondevik Bakıda çoxdan fəaliyyət göstərən bu şirkətə diqqət və qayğıya görə respublikamızın rəhbərinə bir daha minnətdarlığını bildirdi.

Ölkələrimiz arasında münasibətlərin sürətlə inkişaf etməsindən məmnun qaldığını söyləyən Baş nazir Bondevik Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülən işlərin Norveçdə də böyük maraq doğurduğunu nəzərə çarpdırdı. O, Norveç şirkətlərinin Azərbaycanda öz işlərini genişləndirmək və ölkəmizə daha çox investisiya qoymaq niyyətindən ətraflı söhbət açdı.

Səmimi sözlərə görə cənab Bondevikə təşəkkür edən dövlətimizin başçısı Norveçlə bütün sahələrdə əlaqələrin möhkəmləndirilməsinə Azərbaycanın da xüsusi əhəmiyyət verdiyini bildirdi.

Azərbaycanda "Neft fondu" yaradılması haqqında fərman imzaladığını bəyan edən Prezident Heydər Əliyev qabaqcıl neft dövlətlərindən biri olan Norveçin bu sahədə təcrübəsini öyrənmək üçün respublikamızın xüsusi bir nümayəndə heyətinin bu ölkədə səfərdə olduğunu vurğuladı.

Nümayəndə heyətimizin Norveçdə yaranmış "Neft fondu" haqqında dəyərli məlumatlar gətirdiyini söyləyən respublikamızın rəhbəri dedi ki, sözsüz, həmin qabaqcıl təcrübə ölkəmiz üçün faydalı olacaqdır.

Məşhur alim və səyyah Tur Heyerdal ilə şəxsi dostluq əlaqələrindən danışan Prezident Heydər Əliyev Azərbaycan və Norveç xalqları arasında münasibətlərin qədim tarixə malik olduğunu xatırlatdı.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqlardan bəhs edən dövlətimizin başçısı ölkəmizin haqq işini beynəlxalq təşkilatlarda dəstəklədiyinə görə Norveç hökumətinə minnətdarlığını bildirdi.

Söhbət zamanı qarşılıqlı surətdə faydalı əlaqələrin genişləndirilməsi haqqında, Davos Dünya İqtisadi Forumunda müzakirə edilən məsələlər barədə fikir mübadiləsi aparıldı.



## *Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Madlen Olbrayt ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Madlen Olbrayt ilə görüşü



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Madlen Olbrayt[14] ilə görüşdü.

Dövlətimizin başçısını mehribanlıqla salamlayan xanım Olbrayt Prezident Heydər Əliyev ilə yenidən görüşməkdən və onu çox gümrah görməkdən məmnun qaldığını bildirdi.

Prezident Heydər Əliyev səmimi sözlərə görə xanım Olbrayta təşəkkür etdi, Klivlenddə müalicəsi zamanı ona göstərilmiş diqqət və qayğı üçün Dövlət katibinə və Prezident Bill Klintona bir daha minnətdarlığını yetirdi.

1999-cu ilin noyabrında ATƏT-in İstanbul sammitində respublikamızın Prezidenti Heydər Əliyev ilə görüşünü, apardığı danışıqları məmnunluqla xatırlayan xanım Olbrayt həmin günlərdə Prezident Bill Klintonun iştirakı ilə Bakı-Ceyhan əsas ixrac boru kəməri və Transxəzər qaz kəməri barədə sənədlərin imzalanmasını tarixi hadisə kimi dəyərləndirdi.

Ölkələrimizin bütün sahələrdə qarşılıqlı surətdə faydalı əlaqələrindən razılıqla bəhs edən Dövlət katibi Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında yaranmış strate-

ji əməkdaşlığın möhkəm əsaslar üzərində qurulduğunu və bu işdə Prezident Heydər Əliyevin liderliyinin mühüm rol oynadığını nəzərə çarpdırdı.

Xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların gedişindən ətraflı söhbət açdı, Minsk qrupunun həmsədrlərindən biri olan Amerikanın bu münaqişənin tezliklə aradan qaldırılması üçün səylərini daha da artırmasına ehtiyac duyulduğunu vurğuladı.

Xanım Olbrayt münaqişənin aradan qaldırılması üçün Prezident Heydər Əliyev ilə Prezident Robert Koçaryan arasında aparılan birbaşa danışıqların Amerika Birləşmiş Ştatları tərəfindən dəstəkləndiyini söylədi, Minsk qrupunda fəaliyyətini gücləndirməyə Amerikanın hazır olduğunu bildirdi. Xanım Olbraytın fikrincə, bu münaqişənin həlli Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasına, region ölkələrində demokratiyanın inkişaf etməsinə, bu dövlətlər arasında əməkdaşlığın genişlənməsinə əsaslı kömək göstərəcəkdir.

Ötən ilin noyabrında ATƏT-in İstanbul sammitinin keçirildiyi günlərdə məşhur "Çırağan sarayı"nda Bakı-Ceyhan əsas ixrac boru kəməri və Transxəzər qaz kəməri barədə sazişlərin imzalanması mərasimində Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun iştirak etməsini, həmin sənədlərə imza atmasını tarixi hadisə kimi dəyərləndirən Prezident Heydər Əliyev bu nəhəng layihələrin həyata keçirilməsinə Amerika hökumətinin verdiyi dəstəyi yüksək qiymətləndirdi.

Ölkələrimizin strateji tərəfdaşlıq münasibətlərinin bundan sonra daha da möhkəmlənəcəyinə əmin olduğunu bildirən dövlətimizin başçısı Azərbaycan və ABŞ hökumətləri arasında birgə işçi qrupunun yaradılması barədə Bakıda imzalanmış əməkdaşlıq memorandumunun böyük əhəmiyyət daşıdığını nəzərə çarpdırdı.

Vaxtilə ABŞ Konqresi tərəfindən qəbul edilmiş 907-ci düzəlişin hələ də qüvvədə qalmasının Azərbaycan ilə Amerika arasındakı əlaqələrin daha da inkişaf etdirilməsinə müəyyən əngəllər yaratdığını xatırladan respublikamızın rəhbəri bu ədalətsiz düzəlişin aradan qaldırılması üçün səylərin artırılmasının vacib olduğunu bildirdi.

Mehribanlıq və dostluq şəraitində keçən görüşdə regiondakı vəziyyət ətraflı müzakirə edildi, hər iki ölkəni maraqlandıran bir sıra digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.



## *Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin xarici işlər naziri İsmayıl Cəm ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyənin xarici işlər naziri İsmayıl Cəm ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda Türkiyənin xarici işlər naziri İsmayıl Cəm ilə görüşdü.

Ölkəmizin rəhbərini mehribanlıqla salamlayan və onunla yenidən görüşməkdən şərəf duyduğunu nəzərə çarpdıran cənab İsmayıl Cəm türk dünyasının liderləri Prezident Heydər Əliyevin və Prezident Süleyman Dəmirəlin diqqət və qayğısı nəticəsində ölkələrimiz arasında qarşılıqlı surətdə faydalı əlaqələrin gündən-günə inkişaf etməsindən çox məmnun qaldığını bildirdi.

Cənab Cəm Davos iqtisadi forumunda "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusunda keçirilən sessiyada Prezident Heydər Əliyevin çıxışını və suallara çox tutarlı cavablarını yüksək qiymətləndirdi.

Xəzərin enerji ehtiyatlarının dünya bazarına çıxarılması üçün ötən ilin noyabrında ATƏT-in Zirvə görüşü zamanı İstanbulda məşhur "Çırağan sarayı"nda Bakı-Ceyhan əsas ixrac boru kəməri və Transxəzər qaz kəməri barədə sazişlərin görkəmli dövlət xadimi Heydər Əliyevin şəxsi təşəbbüsü və səyləri nəticəsində imzalanmasını böyük tarixi hadisə kimi dəyərləndirən nazir əmin olduğunu bildirdi ki, bu kəmərlərin reallaşması Azərbaycanın və Türkiyənin, eləcə də regionun digər ölkələrinin həyatında silinməz izlər buraxacaq, çox müsbət dəyişikliklər yaranmasına gətirib çıxaracaqdır.

Dost və qardaş Türkiyə ilə əlaqələrin durmadan genişləndirilməsinə Azərbaycanın həmişə xüsusi diqqət yetirdiyini nəzərə çarpdıran dövlətimizin başçısı Davos Dünya İqtisadi Forumunda müzakirəyə qoyulan məsələlərin iştirakçı ölkələrin iqtisadi əməkdaşlığının daha da inkişaf etdirilməsinə yeni təkan verəcəyinə əmin olduğunu bildirdi.

Söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların gedişi və ölkələrimizi maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin İranın xarici işlər naziri Kamal Xərrazi ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin İranın xarici işlər naziri Kamal Xərrazi ilə görüşü



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda İran İslam Respublikasının xarici işlər naziri Kamal Xərrazi ilə görüşdü.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan və Prezident Heydər Əliyev ilə hər bir görüşündən şərəf duyduğunu söyləyən cənab Xərrazi İran Prezidenti cənab Xatəminin xoş arzularını, hörmət və ehtiramını respublikamızın rəhbərinə çatdırdı.

Davos Dünya İqtisadi Forumunda "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusunda keçirilən sessiyada Prezident Heydər Əliyevin dərin məzmunlu çıxışını və suallara ətraflı cavablarını yüksək qiymətləndirən nazirin fikrincə, bu sessiya region ölkələrinin qarşılaşdığı problemlərin həlli istiqamətində böyük əhəmiyyətə malikdir.



Azərbaycan Prezidenti Heydər Əliyevin qarşıdakı rəsmi səfərini İranda çox səbirsizliklə gözlədiklərini vurğulayan, Prezident Xatəminin dəvətini respublikamızın rəhbərinə bir daha çatdıran cənab Xərrazi əmin olduğunu bildirdi ki, dövlətimizin başçısının bu rəsmi səfəri ölkələrimizin bütün sahələrdə əlaqələrinin daha da möhkəmləndirilməsində mühüm rol oynayacaqdır.

İran İslam Respublikası ilə əməkdaşlığın inkişaf etdirilməsinə Azərbaycan Respublikasının xüsusi əhəmiyyət verdiyini nəzərə çarpdıran Prezident Heydər Əliyev onun salamlarını, xoş arzularını cənab Xatəmiyə və dost ölkənin digər rəhbərlərinə çatdırmağı nazirdən xahiş etdi.

İrana rəsmi səfərə gedəcəyini bəyan edən dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, bu ziyarət qonşu ölkələrimizin qarşılıqlı surətdə faydalı əməkdaşlığının daha da sürətlənməsinə yeni güclü təkan verəcəkdir.

Söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması, regionda vəziyyət, ikitərəfli münasibətlərin daha da canlandırılması məsələləri barədə də fikir mübadiləsi aparıldı.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin İsveçrə Konfederasiyasının federal maliyyə naziri Kasper Villinger ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin İsveçrə Konfederasiyasının federal maliyyə naziri Kasper Villinger ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 28-də Davosda İsveçrə Konfederasiyasının federal maliyyə naziri Kasper Villinger[15] ilə görüşdü.

Cənab Villingeri səmimiyyətlə salamlayan dövlətimizin başçısı Heydər Əliyev dedi:

– Mən İsveçrəyə işgüzar səfərə gəlməyimdən çox məmnunam. Bura çox gözəl yerdir. Mən sizin ölkənin Prezidenti ilə də görüşmüşəm.

Mən beş il bundan əvvəl buraya gəlmişdim. Bir daha deməliyəm ki, sizin ölkəniz doğrudan da gözəldir və burada çox işlər görülübdür. Mən burada çoxlu görüşlər keçirirəm, danışıqlar aparıram.

Prezident Heydər Əliyev ilə görüşündən şərəf duyduğunu nəzərə çarpdıran, respublikamızın rəhbərinin Davosda həqiqətən çoxlu görüşlər keçirdiyindən xəbəri olduğunu söyləyən cənab Kasper Villinger dedi:

- Cənab Prezident, bir daha bildirirəm ki, Sizi burada görməyimdən çox məmnunam. Xatırlayıram ki, Azərbaycana səfərim zamanı da Sizinlə görüşmək şərəfi mənə nəsib olmuşdu. Mən o vaxt Sizinlə keçirdiyim çox maraqlı müzakirələri heç vaxt unutmuram.

Siz 1995-ci ildə Davosda olarkən, təəssüf ki, Sizinlə görüşə bilməmişdim. O vaxt mən İsveçrə Konfederasiyasının Prezidenti idim. Ölkəmizdə bu vəzifədə olan adam hər il dəyişir.



İsveçrə Konfederasiyasında belə bir sistemin mövcudluğundan məlumatı olduğunu nəzərə çarpdıran respublikamızın rəhbəri Heydər Əliyev dedi:

– Təəssüf ki, Siz Prezident olanda Sizinlə görüşməmişəm. Amma indi maliyyə naziri ilə də görüşmək mənim üçün xoşdur.

Səmimi sözlərə görə minnətdarlığını bildirən cənab Kasper Villinger dedi:

– Yəqin ki, mən iki ildən sonra yenidən İsveçrə Konfederasiyasının Prezidenti olacağam. O vaxt Sizinlə yenidən görüşərik. Əgər o zaman İsveçrəyə səfərə gəlsəniz, bizə daha böyük şərəf vermiş olarsınız.

Davos iqtisadi forumunun iştirakçı ölkələrin bütün sahələrdə əlaqələrinin sıxlaşdırılmasında mühüm rol oynayacağına əmin olduğunu bildirən dövlətimizin başçısı Azərbaycanın enerji ehtiyatlarının işlənilməsində respublikamızın xarici dövlətlərlə geniş əməkdaşlıq etdiyini nəzərə çarpdırdı.

Bakı-Ceyhan əsas ixrac boru kəməri və Transxəzər qaz kəməri barədə ötən ilin noyabrında İstanbulda ABŞ Prezidenti Bill Klintonun iştirakı ilə imzalanmış sazişlərdən geniş söhbət açan Prezident Heydər Əliyev Azərbaycanın bütün ölkələrlə qarşılıqlı surətdə faydalı əlaqələri möhkəmləndirməyə hazır olduğunu bildirdi.

Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu, islahatların həyata keçirilməsi sahəsində qazanılmış uğurlardan bəhs edən respublikamızın başçısı Ermənistan-Azərbaycan münaqişəsinin ölkəmiz üçün ən ağrılı problem olduğunu vurğuladı.

ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 1996-cı ildə Lissabonda keçirilmiş Zirvə görüşündə bu münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün qəbul olunmuş əsas prinsipləri şərh edən Prezident Heydər Əliyev ATƏT-in o vaxtkı icraçı sədri, İsveçrə nümayəndəsi Flavio Kottinin o zaman verdiyi bəyanatı bir daha yüksək dəyərləndirdi.





Prezident Heydər Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqlardan, ATƏT-in İstanbul sammitində də bu barədə müzakirələr getməsindən ətraflı bəhs etdi.

Söhbət zamanı Azərbaycan-İsveçrə əlaqələrinin daha da genişləndirilməsinə ehtiyac duyulduğu nəzərə çarpdırıldı, Ey-Bi-Bi şirkətinin respublikamızda gördüyü işlərdən söhbət açıldı.

Cənab Villinger ümidvar olduğunu bildirdi ki, Ermənistan-Azərbaycan münaqişəsi Prezident Heydər Əliyevin uzaqgörən siyasəti və müdrik rəhbərliyi ilə tezliklə öz həllini tapacaq, müstəqil Azərbaycan Respublikası dünyanın ən qabaqcıl, inkişaf etmiş ölkələrindən birinə çevriləcəkdir.

Dövlətimizin başçısı Heydər Əliyev İsveçrə şirkətlərinin Dağlıq Qarabağda saat istehsal etmək, zərgərlik işləri görmək, bank təsis etmək cəhdlərindən danışaraq belə halların yolverilməz olduğunu vurğuladı.

Cənab Villinger həmin şirkətlərin bu hərəkətindən çox təəssüfləndiyini söylədi və bu barədə lazımi tədbirlər görəcəklərini bildirdi.

Görüşdə hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin BMT-nin qaçqınlar üzrə ali komissarı Sadako Oqata ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin BMT-nin Qaçqınlar üzrə Ali komissarı Sadako Oqata ilə görüşü



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda BMT-nin qaçqınlar üzrə ali komissarı Sadako Oqata[16] ilə görüşdü.

Xanım Oqatanı mehribanlıqla salamlayan dövlətimizin başçısı dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı olan BMT-nin qaçqınlar üzrə ali komissarı ilə görüşdən məmnun qaldığını bildirdi.

Prezident Heydər Əliyev ilə görüşündən çox şad olduğunu söyləyən, Dünya İqtisadi Forumunda "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusunda keçirilən sessiyada dövlətimizin başçısının çıxışını maraqla dinlədiyini və onun Davosda keçirdiyi görüşlərdən xəbərdar olduğunu nəzərə çarpdıran xanım Oqata Azərbaycanın haqq işinin dünya ictimaiyyətinə daha geniş çatdırılması sahəsində bütün bunların xüsusi əhəmiyyət daşıdığını qeyd etdi.





Dövlətimizin başçısı Heydər Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqlardan ətraflı söhbət açdı.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində yerindən-yurdundan zorla qovularaq uzun illərdən bəri çadırlarda məskunlaşan azərbaycanlı qaçqınların qarşılaşdıqları problemlərdən geniş bəhs edən Prezident Heydər Əliyev əzab-əziyyətlərə mətanətlə sinə gərən, doğma torpağa qayıtmaq həsrəti ilə yaşayan bu insanlara diqqət və qayğının artırılmasının vacib olduğunu bildirdi.

Söhbət zamanı BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə Azərbaycan arasında əlaqələrin daha da möhkəmləndirilməsi məsələləri barədə geniş fikir mübadiləsi aparıldı.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Kerri Kavano ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Kerri Kavano ilə görüşü



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 28-də Davosda ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Kerri Kavano[17] ilə görüşdü.

Dövlətimizin başçısını mehribanlıqla salamlayan, onunla görüşündən məmnun qaldığını söyləyən cənab Kavano əmin olduğunu bildirdi ki, Prezident Heydər Əliyevin Davosda keçirdiyi görüşlər, apardığı danışıqlar Azərbaycanın qarşılaşdığı problemlərin aradan qaldırılmasında mühüm rol oynayacaqdır.



Dünya iqtisadi forumunda "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusunda keçirilən sessiyanın işini diqqətlə izlədiyini nəzərə çarpdıran cənab Kavano Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışını və suallara cavablarını yüksək qiymətləndirdi.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün apardığı birbaşa danışıqlardan ətraflı söhbət açan respublikamızın rəhbəri Heydər Əliyev bu münaqişənin tezliklə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun və həmsədrlərdən biri olan Amerika Birləşmiş Ştatlarının bu sahədə səylərini artırmasına ehtiyac duyulduğunu vurğuladı.

Prezident Heydər Əliyev ilə Prezident Robert Koçaryan arasında aparılan birbaşa danışıqların Amerika Birləşmiş Ştatları tərəfindən dəstəkləndiyini söyləyən cənab Kavano Minsk qrupunda Amerikanın fəaliyyətini gücləndirməyə hazır olduğunu bildirdi.

Mehribanlıq şəraitində keçən görüşdə bir sıra digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin Soros fondunun prezidenti Corc Soros ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin Soros fondunun prezidenti Corc Soros ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda görkəmli ictimai xadim, məşhur maliyyəçi və xeyriyyəçi Corc Soros[18] ilə görüşdü.

Dövlətimizin başçısı Heydər Əliyev cənab Sorosu səmimi salamladı və onunla görüşməyindən şad olduğunu bildirdi.

Prezident Heydər Əliyev ilə şəxsi tanışlığından məmnunluq duyduğunu söyləyən cənab Soros bu fondun Azərbaycandakı fəaliyyətindən ətraflı söhbət açdı.

Fondun ölkəmizdə gördüyü işləri yüksək dəyərləndirən respublikamızın rəhbəri Azərbaycan ilə Soros fondu arasında əməkdaşlığın daha da genişləndirilməsinə ehtiyac hiss edildiyini nəzərə çarpdırdı.

Prezident Heydər Əliyev cənab Sorosu Azərbaycana dəvət etdi. Dəvəti məmnunluqla qəbul edən cənab Soros vaxt tapıb bu dəvətdən mütləq istifadə edəcəyini söylədi.

Görüş səmimilik və dostluq şəraitində keçdi.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin "Britiş Petroleum" şirkətinin prezidenti Con Braun ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin "Britiş Petroleum" şirkətinin prezidenti Con Braun ilə görüşü



Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 30-da Davosda "Britiş Petroleum" şirkətinin prezidenti Con Braun[19] ilə görüşdü.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan cənab Con Braun Prezident Heydər Əliyev ilə görüşündən şərəf duyduğunu bildirdi.

Ötən ilin noyabrında İstanbulda Bakı-Ceyhan əsas ixrac neft boru kəməri barədə sazişin imzalanması münasibətilə respublikamızın rəhbərini təbrik edən cənab Braun "Britiş Petroleum" şirkətinin Azərbaycandakı fəaliyyətini genişləndirmək niyyətindən söhbət açdı.

"Britiş Petroleum" şirkəti ilə Azərbaycan arasında əməkdaşlığın ardıcıl inkişaf etdirilməsinə tərəfdar olduğunu bildirən Prezident Heydər Əliyev ötən ilin noyabrında İstanbulda Amerika Prezidenti Bill Klintonun iştirakı ilə Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə sazişin imzalanmasını böyük əhəmiyyətli tarixi hadisə kimi dəyərləndirdi.





Azərbaycanın zəngin neft və qaz ehtiyatlarının xarici ölkələrin ən nüfuzlu şirkətləri ilə birgə işlənilməsi üçün hələ çoxlu imkan olduğunu xatırladan dövlətimizin başçısı "Britiş Petroleum" şirkətinin respublikamızda gördüyü işlərdən razı qaldığını bildirdi.

Cənab Braun yaxın vaxtlarda Azərbaycana gəlmək istədiyini nəzərə çarpdırdı. Respublikamızın rəhbəri "Britiş Petroleum" şirkətinin prezidenti ilə Bakıda yenidən görüşməkdən məmnunluq duyacağını vurğuladı.

Söhbət zamanı hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

## *Azərbaycan Prezidenti Heydər Əliyevin Yaponiyanın "İtoçu" şirkətinin prezidenti Murofusi Minori ilə görüşü*

Azərbaycan Prezidenti Heydər Əliyevin Yaponiyanın "İtoçu" şirkətinin prezidenti Murofusi Minori ilə görüşü




Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda Yaponiyanın "İtoçu" şirkətinin prezidenti Murofusi Minori ilə görüşdü.

Respublikamızın rəhbəri ilə yenidən görüşməkdən şərəf duyduğunu söyləyən cənab Minori "İtoçu" şirkətinin Bakıdakı fəaliyyətinə göstərdiyi diqqət və qayğıya görə Prezident Heydər Əliyevə təşəkkür etdi.

Ötən ilin noyabrında İstanbulda Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə sazişin imzalanması xəbərinin Yaponiyada da böyük maraqla qarşılandığını nəzərə çarpdıran və bu münasibətlə dövlətimizin başçısını ürəkdən təbrik edən cənab Minori "İtoçu" şirkətinin Azərbaycanla əlaqələri möhkəmləndirməyə xüsusi əhəmiyyət verdiyini vurğuladı.

Yaponiyanın ən nüfuzlu şirkətlərindən biri olan "İtoçu"nun Azərbaycana marağının daha da artmasını müsbət qarşılayan dövlətimizin başçısı Heydər Əliyev ötən ilin noyabrında İstanbulda Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə sazişin Amerika Prezidenti Bill Klintonun iştirakı ilə imzalanmasını tarixi hadisə kimi qiymətləndirdi.

"İtoçu"nun Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətində təmsil olunduğunu





söyləyən cənab Minori Bakı-Ceyhan boru kəmərinin reallaşmasında da yaxından iştirak etmək istədiklərini nəzərə çarpdırdı. O dedi ki, təkcə Yaponiya yox, Amerika Birləşmiş Ştatları, Avropa dövlətləri də Azərbaycanla daha sıx əməkdaşlıq qurmağa böyük səy göstərirlər. Azərbaycan Yaponiya üçün çox əhəmiyyətli bir ölkədir. Biz özümüzə şərəf bilirik ki, məhz "İtoçu" Azərbaycanda iş görməyə başlamış ilk Yaponiya şirkətidir.

"İtoçu"nun ölkəmizdəki fəaliyyətini müsbət qiymətləndirən Prezident Heydər Əliyev Yaponiya ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin vacib olduğunu vurğuladı.

Söhbət zamanı hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə də ətraflı fikir mübadiləsi aparıldı.

## Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın "Şevron" şirkətinin prezidenti Riçard Matske ilə görüşü

Azərbaycan Prezidenti Heydər Əliyevin ABŞ-ın "Şevron" şirkətinin prezidenti Riçard Matske ilə görüşü

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 29-da Davosda ABŞ-ın "Şevron" şirkətinin prezidenti Riçard Matske[20] ilə görüşdü.

Dövlətimizin başçısını səmimiyyətlə salamlayan cənab Matske Prezident Heydər Əliyev ilə yeni görüşündən çox məmnun olduğunu bildirdi.

Ötən ilin noyabrında İstanbulda Bakı-Ceyhan əsas ixrac neft boru kəməri barədə sazişin imzalanması münasibətilə respublikamızın rəhbərini ürəkdən təbrik edən cənab Matske "Şevron" şirkətinin Azərbaycandakı fəaliyyəti haqqında Prezident Heydər Əliyevə ətraflı məlumat verdi.

Respublikamızın "Abşeron" yatağında tezliklə yeni quyu qazacaqlarını və həmin yataqdan çox böyük miqdarda qaz gözlənildiyini vurğulayan "Şevron" şirkətinin prezidenti əmin olduğunu bildirdi ki, Azərbaycan yaxın zamanlarda həm də qaz ixrac edən ən böyük ölkələrdən birinə çevriləcəkdir.

Azərbaycan qazının ixrac olunması üçün Türkiyə hökuməti ilə apardıqları danışıqlar barədə dövlətimizin başçısına məlumat verən cənab Matske dedi ki, "Şevron" şirkəti Azərbaycandakı fəaliyyətinə çox böyük əhəmiyyət verir və ölkəmizin uzunmüddətli tərəfdaşı kimi Bakı-Ceyhan və Transxəzər boru kəmərlərinin reallaşması üçün əlindən gələni etməyə hazırdır.

Davos iqtisadi forumunun "Qafqazın və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun" mövzusunda keçirilmiş sessiyasında respublikamızın rəhbərinin çıxışını və suallara ətraflı cavablarını diqqətlə dinlədiyini nəzərə çarpdıran cənab Matske dedi ki, cənab Prezident, Sizin öz fikirlərinizi həmişə açıq və qətiyyətlə bildirməyiniz məndə xüsusi rəğbət doğurur.

Cənab Matskenin verdiyi məlumatları razılıqla qarşılayan dövlətimizin başçısı Heydər Əliyev ötən ilin noyabrında İstanbulda Amerika Prezidenti Bill Klintonun iştirakı ilə imzalanmış Bakı-Ceyhan əsas ixrac boru kəməri haqqında sazişin Azərbaycan, eləcə də regionun digər ölkələri üçün tarixi əhəmiyyət daşıdığını vurğuladı.

"Şevron"un ölkəmizdəki fəaliyyətindən məmnunluqla söhbət açan Prezident Heydər Əliyev Azərbaycan ilə bu şirkət arasında əlaqələrin daha da genişləndirilməsinin vacib olduğunu bildirdi.

Söhbət zamanı hər iki tərəfi maraqlandıran bir sıra digər məsələlər barədə də fikir mübadiləsi aparıldı.

# Vətənə dönərkən

## *Azərbaycan Prezidenti Heydər Əliyevin İsveçrədəki Azərbaycan Cəmiyyətinin İdarə heyətinin bir qrup üzvü ilə görüşü*

*Azərbaycan Prezidenti Heydər Əliyevin İsveçrədəki Azərbaycan Cəmiyyətinin İdarə heyətinin bir qrup üzvü ilə görüşü*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yanvarın 30-da İsveçrədəki Azərbaycan Cəmiyyətinin İdarə heyətinin bir qrup üzvü ilə görüşdü. Dövlətimizin başçısı Heydər Əliyev görüşdə çıxış etdi.

### *Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı*

– Siz İsveçrədəki Azərbaycan Cəmiyyətinin nümayəndələrisiniz. Səfir sizin fəaliyyətiniz haqqında mənə danışdı.

Bilirsiniz ki, Azərbaycan artıq səkkiz ildir müstəqil dövlətdir. Biz müstəqillik şəraitində yaşayırıq. Dünyanın hər yerində olan azərbaycanlılar bizim üçün əzizdir. Nəhayət, azərbaycanlıların müstəqil bir ölkəsi vardır. Əlbəttə, insan doğulandan həyatı tərk edənədək hər bir ölkədə yaşaya bilər. Ancaq hər bir insan üçün vətən, torpaq, ölkə, müstəqil dövlət onun mənəviyyatı, həyatı üçün çox yüksək anlayışlardır. Ona görə də biz bütün dünyada yaşayan azərbaycanlılarla müstəqil Azərbaycanda yaşayan azərbaycanlıların həmrəyliyini, əlaqələrini çox yüksək qiymətləndiririk. Çünki biz birinci növbədə istəyirik dünyanın hər bir ölkəsində yaşayan azərbaycanlı hiss etsin ki, bu dünya birliyində onun dövləti vardır. Dövləti olmayan xalqın dünya birliyində yeri yoxdur.

Bilirsiniz ki, Azərbaycan xalqı böyük tarixə malikdir. Orta əsrlərdə Azərbaycanın dövləti olubdur. Xalqımızın dövlətçilik tarixi böyükdür. Sonra isə – XIX əsrin əvvəlindən Azərbaycan işğal olunubdur, iki yerə parçalanıbdır. Bizim indi yaşadığımız Azərbaycan rus imperatorluğunun tabeliyində olubdur.

1917-ci ildə Rusiyada oktyabr inqilabı baş verəndən sonra Azərbaycanda olan mütəfəkkir, vətənpərvər insanlar, millətçi insanlar Azərbaycanın müstəqil dövlətini qurmağa çalışıblar və qurublar. Azərbaycan Xalq Cümhuriyyəti yaranıbdır. Bilirsiniz ki, onun qurucuları çoxdur. Amma ən məşhur qurucuları Məmmədəmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli və digərləridir.

Bu cümhuriyyət az – 23 ay yaşayıbdır. Ancaq çox iş görülübdür. İşin mənası, məzmunu da ondan ibarətdir ki, bütün dünyaya bəyan etdilər ki, Azərbaycan xalqının müstəqil dövləti var və o, demokratik prinsiplər əsasında qurulan bir dövlətdir. Ancaq 1920-ci ildə Xalq Cümhuriyyəti süqut etdi.

Oktyabr inqilabı baş verəndə, bolşeviklər hakimiyyətə gələndə, təbiidir ki, hər yeri birdən əlinə keçirə bilmirdilər. Onlar Rusiyada öz hakimiyyətlərini möhkəmləndirəndən sonra demək olar ki, rus imperatorluğunun müstəmləkələrini də yenidən özlərinə birləşdirməyə çalışdılar və birləşdirdilər. Beləliklə, Qafqaz bölgəsində olan Azərbaycan, Gürcüstan, Ermənistan 1920-1922-ci illərdə Rusiyaya yenidən birləşdirildi. 1924-cü ildə Orta Asiya ölkələri, Qazaxıstan da Rusiyaya birləşdirildi. Beləliklə, böyük bir Sovet Sosialist Respublikaları İttifaqı yaradıldı. O, 15 müttəfiq respublikadan ibarət idi. Əvvəllər 12 müttəfiq respublika var idi, İkinci Dünya müharibəsi zamanı Baltikyanı ölkələr də Sovet İttifaqı tərəfindən ələ keçirildikdən sonra 15 müttəfiq respublika oldu.



Biz 70 il belə vəziyyətdə yaşamışıq. Ancaq bu əsrin sonunda Sovet İttifaqı dağılanda bizim xalqımız, təkcə bizim xalqımız yox, bir çox xalqlar imkan tapıb müstəqilliklərini əldə edib, elan etdilər. Cənubi Qafqazda Azərbaycan, Gürcüstan və Ermənistan, eləcə də Orta Asiya ölkələri, Baltikyanı ölkələr öz müstəqilliklərini əldə etdilər.

Beləliklə, biz öz müstəqilliyimizi ikinci dəfə əldə etdik. Ancaq bu dəfə biz bu müstəqilliyi əlimizdə möhkəm saxlaya bildik. Doğrudur, onu saxlamaq asan olmayıbdır. Əgər Azərbaycandan xəbəriniz varsa, bilirsiniz ki, 1990, 1991, 1992, 1993-cü illərdə Azərbaycanda daxili vəziyyət həddindən artıq ağır idi. Ermənistan silahlı qüvvələri bundan istifadə edib, Dağlıq Qarabağ münaqişəsini ortaya ataraq Azərbaycan torpaqlarının bir qismini işğal etdilər. İndi bizim torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bir milyona qədər azərbaycanlı, bizim soydaşlarımız bu torpaqlardan məcburi surətdə çıxarılıblar. İndi onların çoxu çadırlarda yaşayır.

1994-cü ildə biz müharibəni dayandırdıq. İndi müharibə yoxdur, qan tökülmür. Ancaq daimi sülh də əldə etmək mümkün olmamışdır. Bizim çalışdığımız odur ki, məsələni sülh yolu ilə həll edək. Mən Davosda çoxlu görüşlər keçirdim. Ermənistan Prezidenti ilə mənim təkbətək görüşüm oldu, biz iki saatdan artıq danışdıq. Bu, bizim birinci görüşümüz deyildi. Biz təkcə bu il bir neçə dəfə görüşmüşük.

Mən Davosda bir çox dövlət başçıları ilə görüşdüm. O cümlədən, Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonla görüşüm oldu. Amerika Birləşmiş Ştatlarının Dövlət katibi xanım Olbraytla da görüşdüm.

Mən bir sıra digər ölkələrin dövlət və hökumət başçıları ilə görüşdüm. Sizin yaşadığınız ölkənin – İsveçrə Konfederasiyasının Prezidenti ilə də görüşdüm. O da Ermənistan-Azərbaycan münaqişəsi ilə çox maraqlandı. Mən bu məsələ barədə ona geniş məlumat verdim.

İndi Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli barədə danışıqlar prosesi davam edir. Güman edirəm ki, biz bu münaqişəni sülh yolu ilə həll edəcəyik, işğal altındakı torpaqlarımız azad olunacaq, qaçqınlarımız, köçkünlərimiz öz yerlərinə qayıdacaqlar.

Ancaq gənc müstəqil ölkəmizin qarşısında çox böyük problemlər vardır. Bizim ən böyük problemimiz Ermənistan-Azərbaycan münaqişəsidir. Əgər bu olmasaydı, bizim ölkəmiz, yəni Azərbaycan indi daha da çox inkişaf etmiş olardı. Təxminən 8 milyonluq əhalinin bir milyonu, yəni səkkizdə biri qaçqındır, çadırlarda yaşayır. Təsəvvür edin, bu nə qədər ağırdır!

Amma Azərbaycanda başqa işlər də, yəni müsbət işlər də var. Biz xarici ölkələrin investisiyalarını respublikamıza cəlb edə bilmişik. Biz dünyanın bir çox neft şirkətlərini Azərbaycanın neft və qaz yataqlarının birgə işlənilməsinə cəlb edə bilmişik. Bilirsiniz ki, Azərbaycan neft ölkəsidir. Keçmişdə, 150 il bundan əvvəl bizdə neft sənaye üsulu ilə hasil edilməyə başlanıbdır. Amma indi Azərbaycan dövlətinin yeni neft strategiyası vardır. 1993-cü ildə bu strategiyanı mən ortaya atmışam. Biz 1994-cü ildə böyük bir müqavilə imzalamışıq. Həmin müqavilə əsasında xarici şirkətlərlə birgə 1997-ci ildən neft hasil edirik və ixrac edirik. Yaxın illərdə onun çox böyük gəlirini götürəcəyik. Birinci müqaviləyə “Əsrin müqaviləsi” adı verdilər. Sonra isə ötən bu beş il müddətində biz 19 müqavilə imzaladıq. Bunların hamısı birlikdə Azərbaycana 60 milyard dollar investisiya gətirəcəkdir. Azərbaycanda ildə 60, 70, 80 milyon ton neft hasil edilib ixrac olunacaqdır.

Azərbaycanda böyük qaz yataqları da vardır. Məsələn, bizimlə əməkdaşlıq edən iki böyük neft şirkətinin prezidentləri - İngiltərənin "Britiş Petroleum" şirkətinin prezidenti Con Braun və Amerikanın "Şevron" şirkətinin prezidenti Riçard Matske gəlib Davosda mənimlə görüşdülər. Mən bu şirkətlərin Azərbaycandakı fəaliyyətini həmişə izləyirəm və bu barədə məlumatım var. Ancaq onlar Davosda fürsət tapıb mənimlə görüşdülər, yeni məlumatlar verdilər. Bildirdilər ki, görülən işlər nəticəsində əvvəl nəzərdə tutulan həcmdən də çox neft və qaz alınacaqdır. Mənim bu barədə sizə dediklərim hələ proqnozlardır. Amma neft və qaz bundan da artıq olacaqdır. Kiçik bir ölkə üçün belə böyük sərvətlərin hərəkətə gətirilməsi, təbiidir ki, Azərbaycanı zənginləşdirəcək, insanlarımızın rifah halını yaxşılaşdıracaqdır.

İndi biz ağır, çətin dövr keçiririk. Ölkəmiz sosialist iqtisadiyyatından kapitalist iqtisadiyyatına keçir. Məsələn, əvvəllər hər şey dövlətin əlində idi. İndi hər şey özəlləşir, insanlar öz mülkünün sahibi olur. Biz sosialist sistemində 70 il yaşamışdıq, amma bunların heç biri mümkün deyildi.

Mən 14 il Azərbaycanın başçısı olmuşam, sonra 5 il Kremldə işləmişəm. Amma heç bir mülküm, evim, avtomobilim olmayıbdır. Biz belə bir ölkədə yaşamışıq. İndi də şəxsən mənim heç bir şeyim yoxdur. Amma müstəqil dövlətimiz vardır. Xalqımız daha da yaxşı yaşayacaqdır.

Mən bunları deyərkən, istəyirəm siz biləsiniz ki, azərbaycanlıların indi müstəqil dövləti vardır. Hər bir təşkilatda ölkəmizin yeri vardır. Biz buraya gəlmişik, Azərbaycan Prezidentinin hər bir yerdə yeri var.

Ötən ilin noyabr ayında İstanbulda ATƏT-in zirvə görüşü oldu. Biz orada Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə böyük bir saziş imzaladıq. Biz beş il idi ki, bu layihənin üzərində işləyirdik. Çünki çıxarılan nefti ixrac etmək lazımdır. Bilirsiniz ki, Türkiyədə, Aralıq dənizində Ceyhan limanı vardır. Biz hasil olunmuş nefti oraya ixrac etmək istəyirik. Amma buna da mane olanlar var idi. Nəhayət, biz bunu etdik və həmin sazişi imzaladıq. Bu sazişi Türkiyə Prezidenti Süleyman Dəmirəl, Azərbaycan Prezidenti Heydər Əliyev, Gürcüstan Prezidenti Eduard Şevardnadze, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev və Amerika Prezidenti Bill Klinton imzaladılar. İndi həmin sazişi həyata keçirmək lazımdır. Biz onu həyata keçirəcəyik.

Beləliklə, Azərbaycan artıq o Azərbaycan deyildir ki, onu tanımasınlar. İndi Azərbaycanı dünyanın hər yerində tanıyırlar. İndi hər bir azərbaycanlı qürur hissi keçirə bilər ki, mən azərbaycanlıyam, mənim millətimin dövləti, mənim millətim, ölkəm vardır. İsveçrədə, Almaniyada, Fransada yaşasam da fərqi yoxdur, - mənim xalqım var, mənim xalqımın müstəqil dövləti var və dünya xalqları içərisində mənim yerim vardır. Dünya birliyində, bütün beynəlxalq təşkilatlarda Azərbaycanın yeri vardır. Azərbaycan xalqının əsrin sonunda əldə etdiyi nailiyyət budur.

Biz ölkəmizdə bu işləri apararaq, təbiidir ki, dünyada olan bütün azərbaycanlılar haqqında da düşünürük. Düşünürük ki, onlar necə yaşayırlar, nə iş görürlər, bir-biri ilə necə əlaqə saxlayırlar.

Hər bir ölkədə yaşayan başqa millətlər icma, diaspor yaradırlar. Bilirsiniz ki, dünyada ən böyük diaspor Amerikada yəhudilərdir. Amerikada ikinci yerdə erməni diasporu, sonra yunan diasporu durur. Başqa ölkələrdə də belə diasporlar vardır. Fransanı götürün, orada 500 minə qədər erməni vardır. Amma onlar çox böyük birlik təşkil edirlər. İsveçrənin özündə də ermənilər vardır. Mənə dedilər ki, burada qızıl məmulatı satılan zərgərlik mağazalarında çalışanların hamısı ermənilərdir. Belədir ki, ermənilər əsrin əvvəlindən bütün dünyaya səpələniblər. Amma onlarda birlik, bir-biri ilə yaxınlıq vardır. Harada olurlarsa, öz dillərini unutmurlar, öz məktəblərini açırlar, kilsələrini qururlar.

Biz istəyirik ki, harada yaşayırlar-yaşasınlar, azərbaycanlıların da birliyi olsun.





Məsələn, azərbaycanlının azərbaycanlı ilə dostluğu o biri millətdən olanla dostluğundan üstündür. Hər bir xalqın öz adət-ənənəsi vardır. Bizim xalqın da toy, yas ənənələri vardır. Xalqımızın başqa ənənələri, bayramları – Qurban, Ramazan, Novruz bayramları vardır. Bunlar bizim bayramlarımızdır. Ancaq hər bir millətin də öz bayramı, öz günü vardır. İnsanlar bayram günü gəlib bir-biri ilə görüşür, bir-birinə hörmət edirlər, bir yerə yığışırlar.

Amma təkcə belə bayramlara görə demirəm, icma bir yerdə olanda, hər hansı bir azərbaycanlının həyatında çətinlik yarananda hamı yığışıb ona kömək edir. Kimin vəziyyəti yaxşıdırsa, o, durumu ağır olana kömək edir, əl tutur. Bu, təbii bir şeydir. Ancaq bilirsiniz, azərbaycanlılarda bir az soyuqqanlılıq vardır. Biz bunu hiss edirik.

Məsələn, İrandan çoxlu azərbaycanlı indi bu ölkələrdə – Avropa ölkələrində yaşayır. Amma görürəm ki, onların arasında da o qədər birlik yoxdur. Deyirlər ki, Amerikada İrandan gəlmiş bir milyona yaxın azərbaycanlı var. Amma onların da arasında birlik yoxdur. İstəyirik ki, biz dünyada ilk müstəqil Azərbaycan dövləti kimi, bütün dünyadakı azərbaycanlıların birliyini, həmrəyliyini təşkil edək, təmin edək. Məsələn, dekabr ayının 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi, Birliyi günüdür. Biz bunu elan etmişik. Həmin gün bizdə bayramdır. Mən hər il bütün dünya azərbaycanlılarına müraciət edirəm. Müraciətimin məzmunu əsasən ondan ibarətdir ki, daha da birgə olun, bir-birinizə əl tutun, yardım edin, yaxın olun. Beləliklə, biz dünyadakı azərbaycanlıları daha da sıx birləşdirə bilərik. Əvvəl Azərbaycan dövləti olmadığına görə hər şey pərakəndə, dağınıq idi. İndi Azərbaycan dövləti olduğuna görə birliyə imkan yaranıbdır.

Ölkəmizlə əlaqə saxlayın, vaxtınız olanda gəlin, görün. Görün orada həyat necə dəyişir. Həyat dəyişir, amma çətinliklər də var. Dünən Bill Klinton çıxış edirdi. Məsələn, o deyir ki, dünyada bir milyarddan çox kasıb yaşayan insan var. Yəni bu, dünyada qlobal bir məsələdir. İndi Azərbaycanda keçid dövrü olduğuna görə bir az

təbəqələşmə yaranıb. Məsələn, kasıb, orta yaşayanlar da var. Ölkəmizdə indi biznes yaranır, həmin biznesi yaxşı aparanlar zənginləşirlər. Yəni bunlar bütün ölkələrdə olduğu kimidir. Biz sosialist iqtisadiyyatından imtina etmişik, öz dinimizə, dilimizə qayıtmışıq.

Almaniyada bizim səfirimiz vardır, siz onu tanıyırsınız. Mən İsfəndiyar Vahabzadəni Cenevrədə səfir təyin etmişəm, o, Birləşmiş Millətlər Təşkilatının Cenevrə bölməsində Azərbaycanı təmsil edir. Siz onu tanıyırsınız.

Birləşin, əl-ələ verin, bir-birinizə yardım edin və Azərbaycanla da əlaqə saxlayın. Sağ olun.

İsveçrədəki Azərbaycan Cəmiyyətinin İdarə heyətinin üzvü Fərhad Yıldız dövlətimizin başçısına təşəkkür edərək dedi:

– Cənab Prezident, biz 10 ildir ki, Azərbaycanı İsveçrədə yaşadan bir cəmiyyətin üzvləriyik. Biz Azərbaycanı İsveçrədə 10 ildir yaşatmışıq, bundan sonra da yaşadacağıq. Biz heç bir şey gözləməmişik. Amma istəyirik ki, doğma Azərbaycanımızı bundan sonra daha möhkəm yaşadaq.

Allaha and olsun ki, biz Azərbaycan təyyarəsini burada görəndə hər birimiz bir insan kimi sanki yenidən dünyaya gəldik. Arzu edərdik ki, bu təyyarə buraya hər zaman uçub gəlsin. Biz İsveçrədə yaşayan azərbaycanlılar arasında daha sıx birlik, həmrəylik yaratmağa çalışacağıq. İnşallah, buna da nail olacağıq. Allah qoysa, buradakı səfirimizin köməyi ilə biz bu işləri daha da yaxşı təşkil edəcək, doğma Azərbaycanımızın daha geniş tanınmasına nail olacağıq.

Cəmiyyətin İdarə heyətinin üzvü Erol Yıldız görüşdə çıxış edərək dedi:

– Cənab Prezident, Sizin "Biz bir millət, iki dövlətik" kəlamınız vətəndən uzaqda yaşayan azərbaycanlılar tərəfindən də böyük rəğbətlə qarşılanmışdır. Bizim qəlbimiz Azərbaycanla döyünür. İnşallah, Azərbaycanın gələcəyi üçün bundan sonra da əlimizdən gələni edəcəyik. Biz Sizin hüzurunuzda, mətbuat nümayəndələrinin qarşısında buna söz veririk. Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyev İsveçrədə yaşayan soydaşlarımızla xatirə şəkli çəkdirdi.






## *Bakı hava limanında müsahibə*

Bakı hava limanında müsahibə

Azərbaycan Prezidenti Heydər Əliyev vətənə qayıtmaq üçün yanvarın 30-da Davosdan avtomobillə Sürix şəhərinə gəldi.

Dövlətimizin başçısını Sürix beynəlxalq hava limanında İsveçrənin yüksək vəzifəli şəxsləri, Azərbaycanın Almaniyadakı səfiri Hüseynağa Sadıqov, respublikamızın Cenevrədəki daimi nümayəndəsi İsfəndiyar Vahabzadə yola saldılar.

Azərbaycan Prezidenti Heydər Əliyev həmin gün axşam Bakıya gəldi.

Respublikamızın rəhbəri Binə hava limanında jurnalistlərin suallarına cavab verdi.

***Sual:*** Cənab Prezident, səfərinizin yekunları haqqında məlumat verməyinizi xahiş edirik.

**Cavab:** Bu səfərim o qədər zəngin olubdur ki, onun haqqında qısa bir zamanda məlumat vermək mümkün deyildir. Yəqin ki, televiziya, radio, mətbuat vasitəsilə hər şeyi biləcəksiniz. Bilirsiniz ki, mənim bütün səfərlərim haqqında məlumatın hamısı açıq-aydın mətbuata verilir.

Onu deyə bilərəm ki, çox səmərəli bir səfərdir. Davos forumu beynəlxalq iqtisadi forumdur. 30 ildir ki, bu forum davam edir, ildə bir dəfə keçirilir. Həm çox ölkələrin dövlət başçıları, hökumət başçıları, həm də çox iş adamları gəlirlər. Orada həm cari iqtisadi məsələlər, gələcək məsələlər müzakirə olunur, həm də ki, təbiidir, insanlar bir-biri ilə görüşürlər. Bu, böyük imkandır. Yəni dövlət, hökumət başçıları, yaxud xarici işlər nazirləri müəyyən görüşlər keçirib öz məsələlərini müzakirə edirlər. Bir də ki, dünyanın çoxlu iş adamları, məsələn, Yaponiyadan tutmuş Amerikaya qədər, hətta Latın Amerikasından, Cənubi Amerikadan adamlar var idi.

Forum bizim üçün də səmərəli, əhəmiyyətlidir. Çünki orada xüsusi bir bölmə var idi, adını bir az qəribə qoymuşdular: "Böyük İpək yolu – böyük oyundur". Amma əsas məsələ ondan ibarət idi ki, bu İpək yolu doğrudan da realdır, nə cürdür, nə təhərdir.

Orada Qafqaz respublikalarından ikisinin – Azərbaycanın, Ermənistanın prezidentləri, habelə Qırğızıstanın Prezidenti var idi. Türkiyə xarici işlər naziri ilə təmsil olunurdu. Qazaxıstandan Baş nazir gəlmişdi, Prezident yox idi. İrandan da xarici işlər naziri gəlmişdi.

Çox səmərəli görüş keçdi. Bu, həm İpək yolu haqqında, həm Xəzər hövzəsi haqqında, həm də Bakı-Ceyhan boru xətti barədə Azərbaycanın mövqelərini bildirməyə imkan yaratdı. Eyni zamanda suallara cavab verərək imkan oldu ki, Ermənistan-Azərbaycan münaqişəsi haqqında fikirlərimizi, vəziyyəti geniş kütləyə çatdıraq. Mən bunu çox uğurlu hesab edirəm.

Ən böyük, maraqlı tədbir dünən Amerika Birləşmiş Ştatlarının Prezidenti Bill Klintonun gəlməsi, orada böyük bir salonda onun çıxışı idi. Çıxış çox məzmunlu idi: dünyanın bu günü və gələcəyi haqqında. Ümumiyyətlə, bu forumun ən əsas məzmunu, yəni onun ana xətti dünyanın qloballaşması barədə idi. Klintonun da çıxışı əsasən buna həsr olunmuşdu. Mən hesab edirəm ki, çox dəyərli çıxış idi, dəyərli fikirlər irəli sürdü. Həm məzmunca, həm mənaca, həm də formaca çox cəlbedici bir çıxış oldu. Televiziya ilə də birbaşa translyasiya gedirdi – Si-En-En, başqaları verirdi. Ola bilər, sizlərdən də kimsə görübdür. İndi onun

çıxışının məzmununu danışmaq mümkün deyil. Hər halda bizim də mətbuatda onun müəyyən bir hissəsi veriləcək. Yəqin ki, hamısını vermək çətindir, amma müəyyən bir hissəsi veriləcəkdir. Gələcəkdə, kimin imkanı varsa, hər halda tanış olsa yaxşı olar, dünyanın problemlərinə aiddir.

İkitərəfli görüşlər çox oldu. Ermənistan Prezidenti Koçaryanla növbəti dəfə görüşdüm, danışıqları davam etdirdik. Danışıqlar hələ gedir. Hər iki tərəf kompromislər haqqında danışıqlar aparırdı. Ancaq belə qərara gəldik ki, danışıq prosesi davam etməlidir və məsələnin hər iki tərəf üçün məqbul, sülh yolu ilə həllinə nail olmalıyıq.

Amerika Birləşmiş Ştatlarının xarici işlər naziri xanım Olbrayt öz nümayəndə heyəti ilə, mən də xarici işlər naziri və nümayəndə heyətinə daxil olan başqa adamlarla birgə görüşdük. Bu görüşdə birinci yerdə yenə Ermənistan-Azərbaycan münaqişəsinin həll olunması məsələsi dururdu. Hesab edirəm, çox əhəmiyyətli, maraqlı görüş idi. Bəli, Amerika Birləşmiş Ştatlarının hökuməti çox həvəslidir ki, məsələni sülh yolu ilə tezliklə həll edək.

Bir çox başqa dövlət, hökumət başçıları ilə görüşlərim oldu. Onların hamısını burada sadalamaq istəmirəm, mətbuatda veriləcəkdir. Bütün görüşlərdə hamı, hətta, məsələn, İsveçrə Konfederasiyasının Prezidenti, yaxud da İordaniyanın Kralı bu məsələ barəsində məlumat almaq istəyirdi. Bəzən görürsən ki, məsələn, məlumat qıtlığı var, məlumatı yoxdur, ona görə də verilən məlumat maraq doğurur. Mən ikitərəfli çox görüşlər keçirmişəm, hamı belə fikirdədir ki, məsələ sülh yolu ilə həll olunmalıdır. Hamı da arzu edir ki, tezliklə həll olunsun, çünki bunun həm iqtisadi, həm də siyasi əhəmiyyəti var. Çünki Qafqaz, Mərkəzi Asiya indi dünyada çox böyük maraq dairəsi olduğu üçün Qafqazda, xüsusən Cənubi Qafqazda sülh yaranmasında hamı maraqlıdır.

Bir neçə iş adamları, xüsusən bizimlə əməkdaşlıq edən neft şirkətlərinin prezidentləri ilə görüşlər oldu. Onlarla bugünkü və gələcək işlərimiz haqqında danışdıq.

Mən bu görüşlərdən çox məmnunam. Ümumiyyətlə, bu forumda Azərbaycanın iştirak etməsindən çox məmnunam. Beş il bundan öncə, 1995-ci ildə bir dəfə bu forumda olmuşdum. Bu, ikinci dəfədir. Amma bəziləri hər il gəlir, ya da bir il gəlir, bir il gəlmirlər. Ancaq deyə bilərəm ki, bu, indiyə qədər keçirilən forumlardan məzmunca və səviyyəcə daha da yüksək idi. Ona görə də bu səfəri uğurlu hesab edirəm.

***Sual:*** Cənab Prezident, İsveçrənin "Frank müller" və "Andre qrup" şirkətləri Azərbaycanın işğal olunmuş Qarabağ bölgəsində iqtisadi layihə həyata keçirmək fikrindədir. Bununla bağlı Azərbaycanın Xarici İşlər Nazirliyi İsveçrənin Xarici İşlər Nazirliyinə nota göndəribdir. İsveçrə nümayəndələri ilə görüşünüzdə bu məsələyə toxunuldumu?

**Cavab:** Bəli, biz bu məlumatı almışıq və bizim Xarici İşlər Nazirliyi nota göndəribdir. Mən bu barədə İsveçrənin Prezidenti ilə ətraflı danışdım. O dedi ki, mən bunu bilmirdim. Çox da mütəəssir oldu. Eyni zamanda İsveçrənin maliyyə naziri mənimlə ayrıca görüşdü. O, mənimlə görüşməyi xahiş etmişdi, müəyyən məsələləri var idi. Ona da dedim, çox qəti dedim ki, bunların qarşısı alınmalıdır. Çünki ikisi də həmin problemlə çox maraqlanırdı və mən onlara geniş məlumat verəndən sonra, xəritədə hər şeyi göstərəndən sonra axırda dedim ki, görürsünüz, siz maraqlanırsınız, istəyirsiniz ki, məsələ həll olunsun. Məsələn, 1996-cı ildə Lissabon sammitində – o zaman İsveçrə ATƏT-in sədri idi – İsveçrənin xarici işlər naziri Flavio Kotti çox dəyərli iş gördü, biz Lissabon sammitinin sənədini əldə edə bildik. Mən dedim ki, o vaxt siz bizə kömək etmisiniz və onlara təşəkkür etdim. Amma indi belə bir hal



var. Onlar – həm Prezident, həm də maliyyə naziri dedilər ki, biz bunu bilmirik, ancaq lazımi tədbir görüləcəkdir.

***Sual:*** Cənab Prezident, Amerika hökuməti dəfələrlə öz narahatlığını bildirib ki, Çeçenistandakı münaqişə Azərbaycana və Gürcüstana keçə bilər. Prezident Klintonla Sizin görüşünüz olub, bu barədə nə deyə bilərsiniz?

**Cavab:** Prezident Klintonla görüşlərim oldu, bu barədə danışıqlar olmadı. Amma bu məsələ ilə maraqlananlar çoxdur. Xanım Olbraytla bu barədə ətraflı danışdıq. Çünki Klintonla bu barədə danışmağa ehtiyac olmadı. Ancaq Klinton orada öz çıxışında ümumiyyətlə, Çeçenistandakı işlər haqqında Rusiyadan narazılığını bildirdi.

Amma Rusiya Azərbaycanı Çeçenistana yardım etməkdə günahlandırır, bunun əsasında indi Rusiya mətbuatında antiazərbaycan təbliğatı gedir – mən bunu keçən dəfə demişdim, Moskvada kəskin qoymuşdum. Rusiyada Prezident səlahiyyətlərini həyata keçirən Putinlə çox ciddi danışığımız oldu. Amma o, mənə dəfələrlə dedi ki, bu, bizim dövlətimizin siyasəti deyildir. Azərbaycanın müdafiə naziri Rusiyanın müdafiə nazirinin məktubuna rəsmi, kəskin cavab vermişdir. Bildirmişik ki, bunlar hamısı yalandır. Mən Moskvada olanda Putinə də dedim ki, göndərin, istəyirsiniz nümayəndə heyətiniz 10 nəfər olsun, 20 nəfər olsun, 50 nəfər olsun – gəlin, Azərbaycanın hər yerinə baxın. Biz heç bir yardım, filan etmirik.

Hər halda sizə məlumdur ki, Amerika hökuməti Rusiyaya bu barədə – Azərbaycan və Gürcüstan haqqında xəbərdarlıq edibdir. Ona görə artıq bu barədə danışmağa ehtiyac yoxdur.

***Sual:*** Cənab Prezident, Qafqazda təhlükəsizlik paktı ilə bağlı müzakirələriniz oldumu? Digər ölkələr buna necə münasibət bəsləyirlər?

**Cavab:** Bilirsiniz, indi bu mövzu çox aktual, loru dillə desək, çox dəbdə olan mövzu olubdur. Bununla çox maraqlandılar, hamı buna həvəs göstərir. Yəni indi bütün mövzular içərisində bu mövzu- bilirsiniz ki, mən Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktı yaranması haqqında İstanbulda təklif vermişdim-barədə çox danışır, çox böyük maraq göstərir və çox da istəyirlər. Aparılan ikitərəfli danışıqlarda da bu barədə çox deyildi. Onların hamısına deyirəm ki, mən İstanbulda bu təklifi irəli sürmüşəm, ancaq eyni zamanda o vaxt da demişəm və indi də deyirəm: əgər Ermənistanla Azərbaycan arasında münaqişə həll olunmasa, Ermənistanla Azərbaycan arasında sülh yaranmasa, təhlükəsizlik paktından heç də söhbət gedə bilməz.

***Sual:*** Cənab Prezident, Türkiyənin Baş naziri ilə görüşünüzdə hansı məsələlər müzakirə olunmuşdur?

**Cavab:** Bəli, Bülənd Ecevitlə görüş keçirdik. Elə bu məsələlər, dediyim məsələlər müzakirə edildi. Türkiyə ilə bizim aramızda elə bir problem yoxdur. Bilirsiniz ki, bundan öncə mən Türkiyədə olmuş, hamı ilə danışıqlar aparmışdım. Amma indi, bu dəqiqə bizim üçün ən aktual məsələ Ermənistan-Azərbaycan münaqişəsini həll etməkdir. Burada Türkiyə amili də var. Çünki Türkiyə bu işdə bilavasitə iştirak edir. Türkiyənin iştirakı olmadan... Məsələn, Ermənistan dəfələrlə deyib ki, məsələ həll olunarsa, Türkiyə sərhədləri açmalı və ticarət əlaqələrini, diplomatik əlaqələri qurmalıdır. Türkiyə də bəyan edir ki, əgər münaqişə sülh yolu ilə həll olunsa, Azərbaycanın işğal edilmiş torpaqları azad olsa, qaçqınlar yerinə qayıtsa, onda sərhədləri də, yolları da açacaqlar. Yəni Türkiyə bu prosesin iştirakçısıdır. Ona görə də hörmətli Bülənd Ecevitlə bizim danışıqlarımız əsasən bu məzmunda olubdur.

***Sual:*** Cənab Prezident, Siz İranın xarici işlər naziri Kamal Xərrazi ilə də görüşmüsünüz. Sizin İrana qarşıdakı səfəriniz barədə söhbət oldumu?

**Cavab:** Bəli, onlar çox istəyirlər ki, mən İrana gedim. Mən söz vermişəm. Mən onlara dedim ki, əvvəl bizim xarici işlər naziri oraya səfər etsin, ondan sonra mən. Hər halda yaxın zamanda vaxtını təyin edəcəyik. Onlar da çox istəyirlər, mən də buna razılıq vermişəm. Mən İrana gedəcəyəm.

***Sual:*** Cənab Prezident, Siz dediniz ki, Dağlıq Qarabağ münaqişəsi barədə bəzi ölkələrin ətraflı məlumatı yox idi. Davos forumunda iş adamları da iştirak edirdilər. Bu söhbətlərdən sonra hiss etdinizmi ki, onların Azərbaycana marağı artdı?

***Cavab:*** Bilirsiniz, bu söhbətlər təkbətək gedir. İş adamı nə bilir ki, mən Baş nazirlə hansı söhbəti aparıram? Amma iş adamları Azərbaycana çox böyük maraq göstərirlər, çox investisiya qoymaq istəyirlər. Ona görə mən orada iş adamlarının əlindən qaçırdım, – hamı mənimlə görüşmək istəyirdi, amma vaxtım yox idi. Ancaq kiminlə ki, lazım idi, onlarla görüşdüm.

Sağ olun.

Azərbaycan Prezidenti Heydər Əliyevi Binə hava limanında Milli Məclisin sədri Murtuz Ələsgərov, Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, digər rəsmi şəxslər qarşıladılar.

# ƏLAVƏLƏR

## Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Davos Dünya İqtisadi Forumu ilə əlaqədar İsveçrəyə işgüzar səfərinin

## PROQRAMI
*(27-30 yanvar 2000-ci il)*

**27 yanvar, cümə axşamı**

*13.35* Xüsusi təyyarə ilə Sürix şəhərinin hava limanına gəliş
Sürix şəhərinin hava limanından avtomobillərlə Davos şəhərinə gediş

*15.35* Davos şəhərinə gəliş
"Belveder" mehmanxanasında yerləşmə

*17.30* Konqres mərkəzinə gəliş

*17.30 - 18.00* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Davos Dünya İqtisadi Forumunun prezidenti cənab Klaus Şvab ilə görüşü

*18.00* Davos forumunun rəsmi açılışı (Konqres mərkəzi).
Forumu İsveçrə Konfederasiyasının Prezidenti cənab Adolf Oqi açır.

**28 yanvar, cümə**

*08.45* Konqres mərkəzinə gəliş

*09.00 - 10.15* Səhər sessiyası
Mövzu: "Qafqaz və Mərkəzi Asiyanın perspektivləri: İpək yolu və ya böyük oyun"

*11.15* Qar Uçqunluğu üzrə Federal İnstituta gəliş

*11.15 - 13.10* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Ermənistan Respublikasının Prezidenti cənab Robert Koçaryan ilə görüşü

*15.15* "Post Otel" mehmanxanasına gediş

*15.30 - 16.00* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin İsveçrə Konfederasiyasının Prezidenti cənab Adolf Oqi ilə görüşü

*16.15-17.00* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri cənab Kerri Kavano ilə görüşü

*17.20-18.00* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin İsveçrə Konfederasiyasının maliyyə naziri cənab Kasper Villinger ilə görüşü

**29 yanvar, şənbə**

*09.00 - 09.30* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin İran İslam Respublikasının xarici işlər naziri cənab Kamal Xərrazi ilə görüşü



*10.40-11.45* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ABŞ-ın Dövlət katibi xanım Madlen Olbrayt ilə görüşü

*11.50-12.15* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin BMT-nin qaçqınlar üzrə ali komissarı xanım Sadako Oqata ilə görüşü

*13.15-13.45* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Türkiyə Respublikasının Baş naziri cənab Büլənd Ecevit ilə görüşü

*13.50* "Belveder" mehmanxanasına qayıdış

*14.30-15.00* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Norveç Krallığının Baş naziri cənab Kyel Maqne Bondevik ilə görüşü

*15.00-15.30* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Türkiyə Respublikasının xarici işlər naziri cənab İsmayıl Cəm ilə görüşü

*15.30-17.00* ABŞ Prezidenti cənab Bill Klinton tərəfindən Davos Dünya İqtisadi Forumunda iştirak edən ölkələrin dövlət və hökumət başçılarının, nümayəndə heyətləri rəhbərlərinin şərəfinə təşkil olunmuş rəsmi qəbul

*16.00-16.50* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin ABŞ Prezidenti cənab Bill Klinton ilə görüşü

*19.00-19.30* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Mozambik Respublikasının Prezidenti cənab Joakim Çissano ilə görüşü

*19.30-20.00* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin "İtoçu" şirkəti İdarə heyətinin sədri cənab Murofusi Minori ilə görüşü

*20.00-20.30* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin "Şevron" şirkətinin prezidenti cənab Riçard Matske ilə görüşü

*20.30-21.00* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin görkəmli ictimai xadim cənab Corc Soros ilə görüşü

*21.00-21.30* Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin Ukrayna Prezidenti cənab Leonid Kuçma ilə görüşü

*21.30* Dünya İqtisadi Forumunun prezidenti cənab Klaus Şvabın adından dövlət və hökumət başçılarının və yüksək vəzifəli şəxslərin şərəfinə ziyafət

30 yanvar, bazar

| | |
|---|---|
| 09.10 | "Sinof Otel Şeraton" mehmanxanasına gediş |
| 09.15- 09.45 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin İordaniya Kralı Əlahəzrət Abdullah ilə görüşü |
| 10.00-10.30 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin "Britiş Petroleum" şirkətinin prezidenti cənab Con Braun ilə görüşü |
| 12.00 | Sürix şəhərinə gəliş |
| 12.00-13.00 | Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin İsveçrədəki Azərbaycan Cəmiyyətinin İdarə heyətinin bir qrup üzvü ilə görüşü |
| 13.15 | Yolasalma mərasimi |
| 13.25 | Xüsusi təyyarə ilə Bakıya uçuş |



## *Qeydlər*

*1. Klaus Şvab* – Davos Dünya İqtisadi Forumunun yaradıcısı və prezidentidir. 1938-ci ildə Almaniyada anadan olmuşdur. Klaus Şvab öz professional karyerasını maşınqayırma şirkətlərinin Alman Sənaye Assosiasiyasında başlamışdır. 1966-cı ildən 1971-ci ilədək o, İsveçrənin qabaqcıl mühəndis qrupu olan "Sulzer Esçer Viss AQ"-nin idarə heyətinin üzvü olmuşdur. 1971-ci ildə Dünya İqtisadi Forumunu təsis etmişdir. Klaus Şvab İsveçrə Federal Texnologiya İnstitutunda, Sürix və Fliborq universitetlərində təhsil almış, mexanika elmləri doktoru və iqtisad elmləri doktoru adına layiq görülmüşdür. 1972-ci ildə Cenevrə Universitetinin professoru təyin olunmuşdur və hazırda orada biznes siyasəti fənnindən dərs deyir. O, Bişop Universitetinin, Lennokvil Universitetinin (Kvebek), Autonoma de Qvadalaxara (Mexiko) Universitetinin fəxri doktorudur, eyni zamanda Prezident Universitetlərinin Beynəlxalq Assosiasiyasının Baş Məsləhətçilər Şurasının üzvüdür. Klaus Şvab altı kitab və çoxlu məqalə çap etdirmişdir. Onun axırıncı kitabı "Etinasızlığı ram edərək" adlanır (Nyu-York Universitetinin nəşriyyatı, 1994-cü il). O eyni zamanda "Dünya telləri" jurnalının redaksiya şurasının sədridir. Klaus Şvab ictimai işlərə dərindən maraq göstərir. O, BMT Baş katibi yanında fəaliyyət göstərən Ali Səviyyəli Məsləhətçilər Şurasının üzvüdür və "Dəyişən dünyada iqtisadi, sosial və siyasi əlaqələr" komissiyasına rəhbərlik edir. O, həmçinin Beynəlxalq Böhran Qrupunun redaksiya heyətinin, Yer Şurasının, eyni zamanda bir neçə beynəlxalq şirkətin şuralarının üzvüdür. Evlidir, bir oğlu və bir qızı var. -12.

*2. Əskər Akayev* – Qırğızıstanın prezidentidir. 1944-cü il noyabrın 10-da anadan olmuşdur. 1968-ci ildə Leninqrad Dəqiq Mühəndislik və Optika İnstitutunu bitirmiş, həmin institutda aspirant, laborant və mühəndis işləmişdir. 1972-1973-cü illərdə Frunze Politexnik İnstitutunda və Bişkek Texnologiya Universitetində dərs demişdir. 1987-ci ildən Qırğızıstan Elmlər Akademiyasının vitse-prezidenti, 1989-cu ildən isə prezidenti olmuşdur. Texnika elmləri doktorudur. Əskər Akayev 1990-cı ildə və yenidən 1995-ci ildə Qırğızıstan prezidenti seçilmişdir. -14.

*3. Robert Koçaryan* – Ermənistanın prezidentidir. 1954-cü il avqustun 31-də anadan olmuşdur. Yerevan Dövlət Politexnik İnstitutunu mühəndis ixtisası üzrə bitirmişdir. 1997-ci ildən Ermənistanın baş naziri olmuşdur, 1998-ci ildən Ermənistanın prezidentidir. -17.

*4. Qasımcömərd Tokayev* – Qazaxıstan Respublikasının baş naziridir. 1953-cü ildə Almatı şəhərində anadan olmuşdur. 1975-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunu, 1992-ci ildə isə Rusiya Federasiyası XİN-in diplomatiya akadlemiyasını bitirmişdir. 1975-1979-cu ]illərdə SSRİ-nin Sinqapurdakı Səfirliyində çalışmışdır. 1979-1985-ci illərdə SSRİ XİN-in mərkəzi aparatında baş referent, attaşe və üçüncü katib vəzifələrində işləmişdir. 1985-1991-ci illərdə SSRİ-nin Çin Xalq Respublikasındakı Səfirdliyində ikinci, sonra isə birinci katib vəzifələrində işləmişdir. 1992-ci ildə Qazaxıstan Respublikasının xarici işlər nazirinin müavini təyin olunmuşdur. 1994-cü ilin oktyabr ayından Qazaxıstanın xarici işlər naziri olmuşdur.

Fövqəladə və səlahiyyətli səfirdir. 1999-cu ilin noyabr ayında Qazaxıstanın baş naziri təyin olunmuşdur. Çin, ingilis və fransız dillərini bilir. Evlidir, bir oğlu var. -20.

5. ***İsmayıl Cəm*** – Türkiyənin xarici işlər naziridir. 1959-cu ildə Robert kollecini bitirmişdir. 1963-cü ildə Lozanna Universitetində hüquq dərəcəsi, 1981-ci ildə Paris Politexnik Elmlər İnstitutunda sosiologiya üzrə magistr dərəcəsi almışdır. İsmayıl Cəm əmək fəaliyyətinə 1963-cü ildən bir sıra qəzetlərin redaktoru və icmalçısı kimi başlamışdır. 1971-1974-cü illərdə Türkiyə Jurnalistlər İttifaqının İstanbul şöbəsinin rəhbəri, 1974-1975-ci illərdə Türkiyə Radio və Televiziyasının baş direktoru olmuşdur. O, 1987-ci və 1991-ci illərdə İstanbuldan, 1995-ci ildə Qayseridən parlamentə deputat seçilmişdir. 1996-cı ildə sol demokratik parlament qrupunun üzvü olmuşdur. İsmayıl Cəm 1987-1996-cı illərdə Avropa Şurası Parlament Assambleyasının (AŞPA) və Qərbi Avropa İttifaqı Assambleyasının üzvü, 1996-cı ildə isə həmin təşkilatlarda Türkiyənin nümayəndə heyətinin başçısı olmuşdur. 1989-1991-ci və 1993-1995-ci illərdə AŞPA sosialistlər qrupu sədrinin müavini olmuşdur. 1995-ci ildə mədəniyyət naziri olmuşdur. 1997-ci ildən Türkiyənin xarici işlər naziridir. -25.

6. ***Kamal Xərrazi*** – İran İslam Respublikasının xarici işlər naziridir. 1944-cü ildə Tehranda anadan olmuşdur. 1989-cu ildə Tehran Universitetinin fars dili və ədəbiyyatı fakültəsinin dilçilik şöbəsini bitirmişdir. 2 il sonra pedaqogika elmləri üzrə aspiranturada oxumuş, elmi işini ABŞ-ın Hyüston Universitetinə təqdim etmiş və idarəçiliyin psixologiyası üzrə elmlər namizədi dərəcəsi almışdır. 1972-1978-ci illərdə Amerika və Kanadada tələbə islam cəmiyyətlərinin və Londondakı İslam Tədqiqatı Təşkilatının üzvü olmuşdur. K.Xərrazi 1978-80-ci illərdə Radio və Televiziya Təşkilatının proqramlaşdırma üzrə sədr müavini, xarici işlər nazirinin siyasi işlər üzrə müavini, Gənclərin və Yeniyetmələrin İdeya Tərbiyəsi Təşkilatının direktoru vəzifələrində çalışmışdır. 1980-ci ildən İran-İraq müharibəsinin sonunadək Ali Müdafiə Şurasının müşahidəçi üzvü və Ali Müdafiə Şurası Təbliğat Qərargahının rəisi olmuşdur. 1980-ci ildən başlayaraq 9 il ərzində "İRNA" Xəbərlər Agentliyinin direktoru olmuşdur. 1989-cu ildən etibarən İran İslam Respublikasının BMT-də daimi nümayəndəsi olmuş, bu illər ərzində BMT Baş Məclisi sədrinin müavini, BMT Ekologiya və İnkişaf Konfransı sədrinin müavini, BMT Asiya Təşkilatı Qrupunun sədri, Təcavüz və Müdafiə Konfransının sədri və Bosniya ilə İslam Konfransı Əlaqələndirmə Qrupunun üzvü kimi vəzifələri yerinə yetirmişdir. Pedaqogika, psixologiya üzrə bir sıra elmi əsərləri vardır. Evlidir, iki oğlu var. -26.

7. ***Bill Klinton*** (Uilyam Ceferson Blayd adı ilə xaç suyuna çəkilmişdir). 1946-cı il avqustun 19-da Houp şəhərində anadan olmuşdur. Onun ailəsi iki ildən sonra Hot-Sprinqs şəhərinə köçmüş və o, burada orta məktəbi bitirmişdir. 1964-cü ilin payızında Corctaun universitetinə daxil olmuşdur. 1968-ci ildə həmin universiteti qurtarıb beynəlxalq məsələlər üzrə politoloq ixtisasına yiyələnmişdir. Bu universiteti qurtardıqdan sonra İngiltərənin Oksford universitetinə daxil olmuşdur. 1970-ci ildə ABŞ-a qayıtdıqdan sonra Yel universitetinin hüquq fakultəsinə daxil olmuşdur. 1973-cü ildə Yel Universitetini hüquqçu diplomu ilə bitirmişdir. 1976-cı ildə Arkanzas ştatının prokuroru vəzifəsinə öz namizədliyini irəli sürmüş və seçkilərdə qalib gəlmişdir. Bir müddət keçdikdən sonra Arkanzas ştatının baş prokuroru seçilmişdir. İki ildən sonra bu ştatın qubernatoru olmuş və dörd dəfə dalbadal həmin vəzifəyə seçilmişdir. B.Klinton 1981-1982-ci illərdə fərdi hüquq praktikası ilə məşğul olmuş və Arkanzas Universitetində hüquqdan dərs demişdir. 1992-ci ildə ABŞ-ın 42-ci prezidenti seçilmişdir. 1996-cı ildə isə ikinci müddətə ABŞ prezidenti vəzifəsinə seçilmişdir. B.Klinton Hillari Roden Klinton ilə evlənmişdir. Çelsi adlı bir qızı var. Qiraəti çox sevir, qolf oynayır, peşəkar səviyyədə saksofon çalır. -32.



8. ***Adolf Oqi*** – İsveçrə Konfederasiyasının prezidentidir. Londonda İsveçrə Kommersiya Məktəbini bitirib kommersiya diplomu almışdır. 1964-cü ildə İsveçrə Hava Assosiasiyasına daxil olmuş, 1969-1974-cü illərdə texniki direktor, 1975-1981-ci illərdə direktor, 1981-ci ildən "İntersport Şvarts Holdinq" şirkətinin baş direktoru olmuşdur. 1979-cu ildən parlamentin deputatı, 1984-cü ildən İsveçrə Xalq Partiyasının sədridir. Adolf Oqi 1987-ci ildən federal kansler, 1988-ci ilin yanvarından nəqliyyat, kommunikasiya və energetika məsələləri üzrə federal nazir vəzifəsində işləmişdir. 1993-cü ildə və yenidən 1999-cu ilin dekabrında İsveçrə Konfederasiyasının prezidenti seçilmişdir. -38

9. ***Abdullah bin Hüseyn bin Talal*** – 1999-cu ildən İordaniyanın Kralıdır. 1980-ci ildə Böyük Britaniyanın Kral Hərbi Akademiyasında hərbi təhsilini başa çatdırmışdır. 1984-cü ildə Oksford Universitetini beynəlxalq siyasət və beynəlxalq münasibətlər ixtisası üzrə bitirmişdir. 1987-ci ildə Corctaun Universitetində təhsil almışdır. 1989-cu ildə mayor, 1991-ci ildə polkovnik-leytenant rütbələrini almışdır, 1993-cü ildə polkovnik rütbəsi almış və İordaniya xüsusi hərbi qüvvələrinin komandir müavini təyin olunmuşdur. 1997-ci ildə xüsusi hərbi qüvvələrin komandiri olmuşdur. 1998-ci ildə general-mayor rütbəsi almışdır. Kral Abdullah Məhəmməd peyğəmbər sülaləsinin 43-cü nəslindəndir. Kral Abdullah 1999-cu ilin fevralında hakimiyyəti atası II Hüseyndən qəbul etmişdir. -41.

10. ***Leonid Kuçma*** – Ukraynanın prezidentidir. 1938-ci il avqustun 9-da Çerniqovdakı Çaykino kəndində anadan olmuşdur. Dnepropetrovsk Universitetini bitirdikdən sonra, 1960-cı ildən raket-kosmos sahəsində "Yujnı" konstruktor bürosunda işləmişdir. 28 yaşında Baykonur kosmodromunda sınaqlar üzrə texniki rəhbər, 1982-ci ildə baş konstruktor müavini təyin edilmişdir. 1986-1992-ci illərdə "Yujnı" maşınqayırma zavodunun baş direktoru işləmişdir. 1992-ci ilin sentyabrından 1993-cü ilin oktyabrına qədər Ukraynanın baş naziri olmuşdur. 1993-cü ilin dekabrında Ukrayna istehsalçılar və sahibkarlar ittifaqının prezidenti seçilmişdir. 1994-cü il iyulun 10-da Ukraynanın prezidenti seçilmişdir. 1999-cu ildə ikinci dəfə Ukraynanın prezidenti seçilmişdir. Dnepropetrovsk Universitetinin professoru, Ukrayna Mühəndislik Akademiyasının akademikidir. Lenin mükafatı və Ukrayna Dövlət mükafatı laureatıdır. Evlidir, bir qızı var. -43.

11. ***Joakim Çissano*** – Mozambikin prezidentidir. Tibb təhsili almışdır. "Frelimo" Mozambik Azadlıq Cəbhəsinin yaradıcısıdır. 1974-cü ildə keçid hökumətinin baş naziri, 1975-1986-cı illərdə xarici işlər naziri işləmişdir. 1977-ci ildən "Frelimo" Partiyası Mərkəzi Komitəsinin üzvü, Xalq Assambleyasının deputatı olmuşdur. 1986,1989 və 1991-ci illərdə "Frelimo" Partiyasının sədri seçilmişdir. 1986-cı ildən Mozambikin prezidentidir. -44.

12. ***Büländ Ecevit*** – Türkiyənin baş naziridir. 1944-cü ildə İstanbulda Robert kollecində bakalavr dərəcəsi almışdır. Ankara, London, Harvard universitetlərində təhsil

almışdır. 1946-1950-ci illərdə Londonda Türkiyənin mətbuat ofisində işləmişdir. 1950-ci ildən "Ulus" qəzetinin (Respublika Xalq Partiyasının orqanı) şərhçisi, icmalçısı, redaktoru, "Millət" qəzetinin və "Vinston-salem cornal"ın (ABŞ) icmalçısı olmuşdur. 1957-1980-ci illərdə parlamentin, 1959-1980-ci illərdə Respublika Xalq Partiyası Mərkəzi Komitəsinin üzvü olmuşdur. Bülənd Ecevit 1961-1965-ci illərdə əmək naziri vəzifəsini tutmuş, 1974-cü ildə hökumət, 1978-ci ildə koalisiyalı hökumət təşkil etmişdir. 1979-cu ildə istefa vermişdir. 1982-ci ildə Sol Demokratik Partiyanı yaratmış, 1987-ci ildə onun sədri seçilmişdir. 1991-ci ildən parlamentin üzvüdür. Bir sıra kitabların müəllifidir. -46.

*13. Kyel Maqne Bondevik* – Norveçin baş naziridir. 1947-ci il sentyabrın 3-də Molde şəhərində anadan olmuşdur. İlahiyyat elmləri namizədidir. 1972-1973-cü illərdə Nesodden bələdiyyə şurasının üzvü olmuşdur. 1969-1973-cü illərdə Romstal dənizi dairəsində Stortinqin deputatının köməkçisi işləmişdir. 1973-cü ildən Stortinqin deputatı olmuşdur. 1972-1973-cü illərdə dövlət katibi, 1983-1986-cı illərdə din və təhsil işləri naziri vəzifələrində çalışmışdır. 1989-1990-cı illərdə xarici işlər naziri olmuşdur. 1968-1970-ci illərdə "Gənc Norveç xristian demokratları" partiyası sədrinin müavini, 1970-1973-cü illərdə partiyanın sədri olmuşdur. 1975-1983-cü illərdə Xristian Demokrat Partiyası sədrinin müavini, 1983-1985-ci illərdə Xristian Demokrat Partiyasının sədri olmşdur. 1981-1983, 1986-1989, 1993-1997-ci illərdə Xristian Demokrat Partiyasının parlament qrupuna başçılıq etmişdir. 1973-1977-ci illərdə parlamentin din və təhsil məsələləri, 1977-1983-cü illərdə maliyyə məsələləri, 1986-1989-cu və 1993-1997-ci illərdə xarici işlər və konstitusiya məsələləri, 1990-1993-cü illərdə müdafiə məsələləri daimi komissiyalarının üzvü olmuşdur. 1997-ci il oktyabrın 15-də Baş nazir vəzifəsinə təyin edilmişdir. Evlidir, 3 övladı var. -47.

*14. Madlen Olbrayt* – ABŞ-ın dövlət katibidir. 1937-ci ilin mayında Çexoslovakiyanın Praqa şəhərində anadan olmuşdur. Atası Yozef Korbel çex diplomatı olmuş, İkinci Dünya müharibəsi qurtaqdıqdan sonra BMT-də işləmişdir. M.Olbrayt 1959-cu ildə Uelsi kollecini əla qiymətlərlə bitirib politologiya sahəsində bakalavr dərəcəsi almışdır. 1968-ci ildə magistr dərəcəsinə, 1976-cı ildə Kolumbiya Universitetində fəlsəfə doktoru adına layiq görülmüşdür. 1976-cı ildən senator Edmund Maskinin ofisində işləmişdir. İki ildən sonra prezident C.Karterin hökuməti dövründə Milli Təhlükəsizlik Şurasının üzvü seçilmiş, Z.Bjezinskinin rəhbərliyi altında işləmişdir. M.Olbrayt ABŞ prezidenti vəzifəsinə namizədlər U.Mondeyl və M.Dukakisin seçki kampaniyaları zamanı müvafiq olaraq 1984-cü və 1988-ci illərdə xarici siyasət məsələləri üzrə əlaqələndirici işləmişdir. 1989-cu ildən Milli Siyasət Mərkəzinin prezidentidir. 1982-ci ildən beynəlxalq münasibətlər üzrə professordur və Corctaun universitetinin Xarici Siyasət Məktəbindəki "Qadınlar xarici siyasət xidmətində" proqramının direktorudur. M.Olbrayt 1993-cü ilin fevralında Kabinetin üzvü statusunu almış və ABŞ-ın BMT-dəki daimi nümayəndəsi təyin edilmişdir. Səfir M.Olbrayt BMT-nin Təhlükəsizlik Şurasında Yuqoslaviyada, Haitidə, Ruandada vəziyyətə dair məsələlər üzrə ABŞ siyasətinin hazırlanmasında iştirak etmişdir. O, İraqa qarşı sanksiyaların zəifləđilməsinin fəal əleyhdarıdır, Bosniya və Hersoqovinada hərbi cinayətkarların məsuliyyətə cəlb olunmasının tərəfdarıdır. 1997-ci ilin yanvarından ABŞ-ın dövlət katibidir. "Polşa: mətbuatın siyasi dəyişikliklərdə rolu", "Mətbuatın siyasi dəyişikliklərdə rolu – Çexoslovakiya – 1968" və "Sovet diplomatiya xidməti: elitanın profili" əsərlərinin müəllifidir. Çex, polyak, rus və fransız dillərində sərbəst danışır. Boşanmışdır, üç qızı var. -49.



*15. Kasper Villinger* – İsveçrə Konfederasiyasının federal maliyyə naziridir. İsveçrə Federal Texnologiyalar İnstitutunu mexaniki mühəndislik ixtisası üzrə bitirmişdir. Siqaret və velosiped istehsalı üzrə fabriklərin şərikli sahibi olmuşdur. Mərkəzi İsveçrə Ticarət Palatasının vitse-prezidenti, Aarqau kantonunun sənaye və ticarət palatasının vitse-prezidenti olmuşdur. 1972-1982-ci illərdə Lütsern kantonundan parlamentin üzvü kimi fəaliyyət göstərmişdir. 1982-ci ildə milli kansler olmuşdur. 1983-1987-ci illərdə İsveçrənin Müdafiə Komitəsinə daxil olmuşdur. 1987-ci ildə Dövlət Şurasının, Yollar və Nəqliyyat Komitəsinin üzvü olmuşdur. 1989-cu ildən federal kansler, müdafiə naziri vəzifələrində çalışmışdır. 1995-ci ildə İsveçrə Konfederasiyasının prezidenti olmuşdur. -53.

*16. Sadako Oqata* – Birləşmiş Millətlər Təşkilatının qaçqınlar üzrə ali komissarıdır. 1927-ci il sentyabrın 16-da Tokio şəhərində anadan olmuşdur. Xanım Oqata 1951-ci ildə Tokio şəhərindəki Müqəddəs Ürək Universitetində bakalavr, 1953-cü ildə Vaşinqton şəhərindəki Corctaun Universitetində beynəlxalq əlaqələr üzrə magistr, 1963-cü ildə Berkli şəhərindəki Kaliforniya Universitetində siyasi elmlər üzrə doktor dərəcələrini almışdır. 1965-1974-cü illər ərzində Tokio şəhərindəki Beynəlxalq Xristian Universitetində və Müqəddəs Ürək Universitetində beynəlxalq əlaqələr üzrə mühazirələr oxumuş, 1974-cü ildən 1976-cı ilə kimi Beynəlxalq Xristian Universitetində diplomatiya tarixi və beynəlxalq əlaqələr üzrə müxbir - professor olmuşdur. 1976-cı ildən 1978-ci ilə kimi Birləşmiş Millətlər Təşkilatı yanında Yaponiyanın Daimi Nümayəndəliyində nazir, 1978-1979-cu illərdə isə fövqəladə və səlahiyyətli nazir vəzifəsində çalışmışdır. Bununla yanaşı o, 1978-ci ildən 1979-cu ilə qədər UNİSEF-in (BMT-nin Uşaq fondu) İcraçı Şurasının sədri olmuşdur. 1982-ci ildən 1985-ci ilədək BMT-də İnsan Hüquqları Komissiyasında Yaponiyanın nümayəndəsi, 1990-cı ildə isə həmin Komissiyasının müstəqil eksperti olmuşdur. Sadako Oqata 1991-ci il fevralın 18-dən BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına rəhbərlik edir. Diplomatiya tarixinə və beynəlxalq əlaqələrə həsr olunmuş kitabların və çoxsaylı məqalələrin müəllifidir. Evlidir, bir oğlu və bir qızı var. -56.

*17. Kerri Kavano* – ATƏT-in Minsk qrupunda ABŞ-nın xüsusi təmsilçisidir. 1976-cı ildə Florida Universitetində bakalavr dərəcəsi, 1978-ci ildə Notr-Dam Universitetində magistr dərəcəsi almışdır. 1984-cü ildə Dövlət Departamentinə işə qəbul edilərək aşağıdakı idarə və vəzifələrdə çalışmışdır: ABŞ-ın Berlindəki Səfirliyinin Konsul İdarəsi; Dövlət Departamentinin Avropa/Sovet Beynalxalq Münasibətlər İdarəsi; ABŞ-ın Moskvadakı Səfirliyinin siyasi şöbəsi; Dövlət katibinin müavininin aparatında Rusiya üzrə xüsusi müşavir; Dövlət Departamentinin Cənub-Şərqi Avropa İdarəsinin direktoru; Dövlət Departamentinin Kipr üzrə xüsusi vasitəçisi; ABŞ-ın Berndəki missiyası rəhbərinin müavini. Kerri Kavano 1999-cu ildə ATƏT-in Minsk qrupunda ABŞ-ın xüsusi təmsilçisi təyin edilmişdir. -58.

*18. Corc Soros* – Soros fondunun sədridir. 1952-ci ildə London İqtisadiyyat Məktəbini bitirmişdir. 1979-cu ildə Açıq Cəmiyyət Fondunun, 1984-cü ildə Macarıstanda Soros fondunun, 1987-ci ildə SSRİ-də Soros fondunun, 1990-cı ildə Budapeştdə və Praqada Mərkəzi Avropa İnstitutunun əsasını qoymuşdur. Soros bir sıra kitabların, Şərqi Avropada və keçmiş SSRİ-də siyasi və iqtisadi dəyişikliklər barədə çoxlu məqalələrin müəllifidir. -59.

***19. Con Braun*** – "Britiş Petroleum" şirkətinin Direktorlar Şurasının sədridir. 1948-ci ildə anadan olmuşdur. 1966-cı ildə "Bi-Pi"də universitet stajçısı kimi işləməyə başlamışdır. Kembric Universitetində fizik diplomu və Stenford Universitetində (Kaliforniya) magistr dərəcəsi almışdır. Braun Dağ-mədən Sənayesi və Metallurgiya İnstitutu şurasının fəxri mühəndisi və üzvüdür. 1969-cu və 1983-cü illər arasında Ankoricdə, Nyu-Yorkda və San-Fransiskoda, Londonda və Kanadada neft kəşfiyyatı və hasilatı sahəsində müxtəlif vəzifələr tutmuşdur. 1984-cü ildə "Bi-Pi Faynans İntenəşnl" qrupunun xəzinədarı və icraçı direktoru olmuşdur. 1986-cı ilin aprelində Braun Klivlenddə (Ohayo) "Standard Oyl Kompani"də icraçı vitse-prezident və baş maliyyə direktoru vəzifəsini tutmuşdur. 1987-ci ildə "Bi-Pi" – "Standard" birləşməsi nəticəsində özünün icraçı vitse-prezident və baş maliyyə direktoru vəzifəsindən əlavə Braun "Standard Oyl Prodakşn"ın baş icraçı direktoru vəzifəsinə irəli çəkilmişdir. 1989-cu ildə o, Londonda "Bi-Pi Eksploreyşn"in müdiri və icraçı direktoru olmuşdur. Braun həmçinin Stenfordda Ali Biznes Məktəbinin idarə heyətinin sədridir. 1991-ci il sentyabrın 7-də "Britiş Petroleum" şirkətinin direktoru təyin edilmiş, sonra şirkətin Direktorlar Şurasının sədri seçilmişdir. -60.

***20. Riçard Matske*** – "Şevron" korporasiyasının vitse-prezidentidir. 1961-ci ildə Pensilvaniya Universitetində geologiya üzrə elmi dərəcə, 1977-ci ildə Sent-Meri Kollecində magistr dərəcəsi almışdır. 1961-ci ildə "Şevron"da geoloq vəzifəsinə işə götürülmüş, 1976-cı ildə şirkətin prezidentinin köməkçisi olmuşdur. 1979-cu ildən "Orto Fertilizer Divijn"in vitse-prezidenti və baş direktoru, 1986-cı ildən "Şevron Kanada Resorses"in direktoru və prezidenti olmuşdur. 1989-cu ildən "Şevron Oversis Petroleum"un prezidentidir. Riçard Matske Amerika Peşəkar Geoloqlar İnstitutunun, Amerika Neft Geoloqları Assosiasiyasının, Kaliforniya Birliyi Klubunun üzvüdür. -64.



# *Şəxsi adların göstəricisi*


Abdullah bin Hüseyn bin Talal - *41-42.*
Akayev, Əsgər - *14,15-16,24.*
Bondevik, Kyel Maqne - *47-48.*
Braun, Con - *60-61,68.*
Cəm, İsmayıl - *14,25,26,30,51.*
Çissano, Joakim - *44-45.*
Dəmirəl, Süleyman - *68.*
Ecevit, Bülənd - *46-47,73.*
Əliyev, İlham - *41.*
Heyerdal, Tur - *48.*
Xatəmi, Seyid Məhəmməd - *52,53*
Xərrazi, Kamal - *14,26,27,28,29,30,52-53,74.*
Xoyski, Fətəli xan - *66.*
Kavano, Kerri - *36,58-59.*
Klinton, Bill - *7,13,14,30,32,33,35,36,39-41,49,54,60,64,67,68,69,71,73*
Koçaryan, Robert - *7.17,20,40,45-46,50,72.*
Kotti, Flavio - *38,55,72.*
Kuçma, Leonid - *43-44.*
Qovinq, Nik - *14,28,31.*
Matske, Riçard - *64,68.*
Minori, Murofusi - *62-63.*
Nazarbayev, Nursultan - *68.*
Oqata, Sadako - *56-57.*
Oqi, Adolf - *38-39.*
Olbrayt, Madlen - *36,40,49-50,67,72,73.*
Putin, Vladimir - *29,73.*
Rəsulzadə, Məmmədəmin - *66.*
Soros, Corc - *59.*
Şevardnadze, Eduard - *29,68.*
Şvab, Klaus - *12-13.*
Tokayev, Qasımcömərd - *14,20,21,25,29,30.*
Topçubaşev, Əlimərdan bəy - *66.*
Villinger, Kasper - *53-55.*
Yıldız, Erol - *70.*
Yıldız, Fərhad - *70.*
Yusifbəyli, Nəsib bəy - *66.*

# Mündəricat

*Oxucuya* ---------------------------------------------------------- *3*

*Davos Dünya İqtisadi Forumunun işində* ------------------ *5*

*Görüşlər, mükalimələr, müzakirələr...* --------------------- *37*

*Vətənə dönərkən* --------------------------------------------- *65*

*Əlavələr* ---------------------------------------------------------- *75*

Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyevin
Davos Dünya İqtisadi Forumu ilə əlaqədar İsveçrəyə işgüzar səfərinin proqramı ---------------- *76*

Qeydlər ---------------------------------------------------------- *79*

Şəxsi adların göstəricisi ---------------------------------------------- *85*

Kitab Azərbaycan Respublikası Prezidentinin Katibliyi
tərəfindən hazırlanmışdır

Kitabın hazırlanmasında
AzərTAc-ın materiallarından istifadə olunmuşdur

mural MATBAACILIK VE AMBALAJ SAN. A.Ş.
Tel: 0 312 267 19 45 Danışma Hattı: 0 800 314 54 98